QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 094 (5566) 17 **may** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# İlham Əliyev: “Naxçıvan uğurla, sürətlə inkişaf edir”

*Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfər edib*



Səh 2

Prezident İlham Əliyev XXIV Azərbaycan Beynəlxalq Qida Sənayesi və XII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı sərgiləri ilə tanış olub



6

Azərbaycan və Türkiyə parlamentlərinin sədrləri “Şərəf” medalı ilə təltif olunublar



9

Nazirlər Kabinetində dərman vasitələrinə nəzarətin gücləndirilməsi ilə bağlı iclas keçirilib



9

Ulu öndər Heydər Əliyevin 95 illik yubileyi münasibətilə Astanada qazax dilində “Vətəninə yol açmış” adlı kitabın təqdimatı olub



7

Səməd Seyidov: “AŞPA-nın son qərarı Azərbaycana qarşı ikili standartların bariz nümunəsidir”



8

Laçının işğal tarixindən 26 il ötür



13

14

Fələstin Vaşinqtondakı nümayəndəsini geri çağırıb



8

Ermənistanda nümayişçilər Yerevan meriyasına giriblər



16

Çempionlar Liqasının final oyunu 226 ölkədə yayımlanacaq



# İlham Əliyev: “Naxçıvan uğurla, sürətlə inkişaf edir”

## *Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfər edib*



### *Rəsmi xronika*

Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikası ərazisində meliorativ tədbirlərin həyata keçirilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Ordubad Su Elektrik Stansiyasının tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasında Culfa-Ordubad magistral avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfərə gəlib. AZƏRTAC xəbər verir ki, Naxçıvan Beynəlxalq Hava Limanında dövlətimizin başçısını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov qarşıladı. Hava limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Dövlətimizin başçısı Naxçıvan Muxtar Respublikası hökumətinin üzvləri ilə görüşdü.***



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində “Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsinin birinci mərhələsinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlətimizin başçısına layihə ilə bağlı görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, layihə üzrə tikinti işlərinin icrasına 2012-ci ildən başlanılıb. Layihəyə əsasən Şərur şəhərinə, Mahmudkənd kəndinə və Zeyvə kəndinin bir hissəsinə su şəbəkəsi, Şərur şəhərinə kanalizasiya şəbəkəsi çəkilib və ev birləşmələri aparılıb. Layihənin birinci mərhələsi ötən ilin dekabrında başa çatıb. Layihəyə əsasən Arpaçay subölücüsündə gölün dibindən 6 metr dərinlikdə eni 1,3 metr, hündürlüyü 2 metr, uzunluğu 134 metr olan qalereya tikilib. Qalereyanın su sərfi saniyədə 1150 litr təşkil edir. Buradan su anbarlarına qədər diametri 900 millimetr olan plastik boru ilə 1500 metr xətt çəkilib. Xətt üzərində bir ədəd suboşaldıcı inşa olunub. Qalereyadan gələn su dezinfeksiya olunaraq su anbarlarına yığılır və öz axını ilə əhaliyə fasiləsiz ötürülür. Layihə çərçivəsində hər birinin tutumu 10 min kubmetr olan iki ədəd və tutumu 7 min 500 kubmetr olan bir ədəd, cəmi tutumu 27 min 500 kubmetr olan su anbarları tikilib. Su anbarlarından Şərur şəhərinədək diametri 900 millimetrdən 630 millimetrə qədər olan borularla 9,5 kilometr uzunluğunda xəttin tikintisi aparılıb.

Layihə ərazisində diametri 560 millimetrdən 63 millimetrə qədər plastik borularla 59,4 kilometr içməli su xətti çəkilib, 2500 ev su şəbəkəsinə qoşularaq sayğac quraşdırılıb. Su şəbəkəsi üzərində 7 yanğın hidrantı tikilib. Yerin relyefindən asılı olaraq mənzillərə su 2-5 bar arasında təzyiqlə verilir. Şərur şəhərində diametri 400 millimetrdən 200 millimetrə qədər olan borularla 19 kilometrdən çox daxili kanalizasiya şəbəkəsi çəkilib və 1500 ədəd ev kanalizasiya xəttinə qoşulub. Kanalizasiya sularının kənarlaşdırılması üçün diametri 400 millimetrdən 600 millimetrə qədər plastik borularla 7,3 kilometr uzunluğunda ana xəttin inşası aparılıb.

Bununla da Şərur şəhərində, Mahmudkənd kəndində və Zeyvə kəndinin bir hissəsində 13 min 500 nəfər Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su ilə davamlı olaraq 24 saat təmin ediləcək.

Sonra dövlətimizin başçısı “Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsinin birinci mərhələsinin açılışını bildirən düyməni basdı.

Sonra rayon ictimaiyyətinin nümayəndələri ilə görüşən Prezident İlham Əliyev bildirib ki, Naxçıvanın hər bir şəhərində içməli su-kanalizasiya layihələri icra edilir: “Bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm. Şərur şəhərinin içməli su problemi öz həllini tapıbdır. Gözəl, əlamətdar hadisədir. Mənə verilən məlumata görə, bir neçə kənd də indi içməli su ilə təmin olunur. Bu, çox vacib sosial layihədir. Naxçıvanın hər bir şəhərində içməli su-kanalizasiya layihələri icra edilir. Artıq Şərur Naxçıvan, Culfa, Şahbuz şəhərlərindən sonra dördüncü şəhərdir ki, bu məsələ öz həllini tam tapıbdır.

Siz yaxşı bilirsiniz ki, əvvəlki dövrlərdə içməli su məsələsi həmişə çox ciddi problem kimi insanları narahat edirdi. Ancaq bu gün Şərur şəhərinə tam təmiz, Dünya Səhiyyə Təşkilatının standartlarına tam uyğun içməli su verilibdir. Digər şəhərlərdə layihələr icra edilir və icra ediləcək. Yaxın gələcəkdə Naxçıvanın bütün şəhərlərinin içməli su-kanalizasiya layihələri tam başa çatacaq. Bu, ölkəmizin gücünü, qüdrətini, bizim sosial siyasətimizi göstərir. Həmişə demişəm, bu gün də demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Onun problemlərinin, qayğılarının, bütün sosial məsələlərin həlli üçün bizdə çox güclü iradə, imkanlar var və görülən işlər bizim siyasətimizi əks etdirir.

Ardı Səh. 3

# İlham Əliyev: “Naxçıvan uğurla, sürətlə inkişaf edir”

## *Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfər edib*





Əvvəli-Səh-2

Naxçıvan Muxtar Respublikasında sosial sahənin inkişafı üçün çox böyük işlər görülübdür, xəstəxanalar, məktəblər tikilibdir, içməli su və digər infrastruktur layihələri icra edilir. Əlbəttə ki, bu məsələlər insanların rahat yaşaması üçün əsas şərtdir. İçməli su insan sağlamlığı üçün əsas məsələdir və biz bu məsələni ölkə üzrə hər bir yerdə həll edirik. Azərbaycanın hər bir yerində içməli su-kanalizasiya layihələri icra edilir və qarşıya vəzifə qoyulubdur ki, bütün şəhərlərin su şəbəkəsi, kanalizasiya xətləri yenidən qurulsun. İşlərin böyük əksəriyyəti demək olar ki, öz həllini tapıbdır. O cümlədən Naxçıvan Muxtar Respublikasında da bu işlərə böyük diqqət göstərilir və beləliklə, bu önəmli sosial məsələ öz həllini tapmış olur.” Sonda xatirə şəkli çəkdirildi.

Mayın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edib. AZƏRTAC xəbər verir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlətimizin başçısına abidənin ətrafında aparılan abadlıq və yenidənqurma tədbirləri barədə məlumat verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Naxçıvan Müəllimlər İnstitutunun yeni binasının açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlətimizin başçısına məlumat verdi ki, altı mərtəbədən ibarət olan bu ali təhsil ocağında ümumilikdə 23 auditoriya var. Binada 4 kompüter otağı, 16 elektron lövhəli auditoriya, kitabxana və oxu, eləcə də elektron oxu zalları, rəngkarlıq və heykəltəraşlıq emalatxanaları var. Təsviri incəsənət, coğrafiya, musiqi, hərbi, tibb, Azərbaycan dili, ali riyaziyyat və informatika otaqları tələbələrin biliklərinin artırılması üçün bütün zəruri inventarla təchiz edilib. Binada psixologiya laboratoriyası, müəllim və tələbələr üçün bufet də yaradılıb. Tələbələrin ixtiyarına verilən idman zalında müasir qurğular quraşdırılıb. Binada 132 və 20 yerlik iclas zalları da var. Bu zallarda təhsil müəssisəsinin həyatında baş verən əlamətdar hadisələrlə bağlı müxtəlif tədbirlər keçirmək mümkündür.

Naxçıvan Müəllimlər İnstitutunun yeni binasında yaradılan şərait bir daha sübut edir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə təhsil sahəsinin inkişafı istiqamətində atılan addımların nəticəsində muxtar respublikada da böyük işlər görülüb. Bütün bunlar Azərbaycanda insan kapitalının inkişafı istiqamətində dövlətimizin həyata keçirdiyi siyasətin məntiqi nəticəsidir.

Bina ilə tanışlıqdan sonra Prezident İlham Əliyev ali təhsil ocağının kollektivi və şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Dövlətimizin başçısı görüşdə çıxış edərək bildirib ki, bu binanın tikilməsi onu göstərir ki, Naxçıvan uğurla, sürətlə inkişaf edir. Son illər ərzində muxtar respublikada böyük abadlıq-quruculuq işləri görülüb. Naxçıvan Muxtar Respublikası bütün iqtisadi göstəricilərinə görə çox sürətlə inkişaf edən respublikadır. Son 15 il ərzində respublikanın ümumi daxili məhsulu on dəfəyə yaxın artıbdır:

“Bu, məncə, dünya miqyasında rekord göstəricidir. Bütün uğurlar münasibətilə Naxçıvan Muxtar Respublikasının rəhbərliyini, bütün sakinlərini ürəkdən təbrik etmək istəyirəm.

Naxçıvan şəhəri, bütün şəhərlər abadlaşır, gözəlləşir, çox böyük quruculuq, yaşıllaşdırma işləri aparılır. Yol boyunca vaxtilə əkilmiş ağaclar indi böyüyüb, çox gözəl mənzərə yaradır. Binalar təmir olunur, yeni gözəl binalar tikilir. Bir sözlə, Naxçıvanın uğurlu inkişafı hər bir Azərbaycan vətəndaşının istəyinə bağlı olan məsələdir. Çünki Naxçıvan bizim tarixi diyarımızdır, qədim Azərbaycan torpağıdır, tarixi yerdir. Burada yerləşən tarixi abidələr Azərbaycan xalqının istedadını göstərir. Onu göstərir ki, Azərbaycan xalqı əsrlər boyu bu diyarda yaşayıb-yaratmışdır.

Naxçıvan strateji yerdə yerləşir, ölkəmizin təhlükəsizliyi, inkişafı üçün xüsusi rol oynayır. Naxçıvanın uğurlu inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər sovet dövründə də daim Naxçıvana böyük diqqət göstərmişdir və o vaxt respublikanın inkişafı üçün çox böyük işlər görülmüşdür. 1990-cı illərin əvvəllərində - Naxçıvan üçün ən ağır illərdə Ulu Öndər naxçıvanlılarla birlikdə burada çox ağır şəraitdə Naxçıvanı böyük bəlalardan qurtara bilmişdir. Biz hamımız o illəri yaxşı xatırlayırıq, bilirik ki, bizim mənfur düşmənlərimizin niyyəti, eyni zamanda, Naxçıvanı da işğal etməkdən ibarət idi. Naxçıvana qarşı onlar silahlı hücumlar təşkil edirdilər. Ancaq naxçıvanlılar Ulu Öndərin ətrafında sıx birləşərək düşmənə layiqli cavab verib onları yerinə oturtmuşlar.

O illərdə Naxçıvan üçün və ümumiyyətlə Azərbaycan üçün həlledici məsələlər öz həllini tapmışdır. Ulu Öndərin rəhbərliyi ilə Naxçıvan o ağır illərdən şərəflə çıxa bilmişdir. Ölkəmizin müstəqilliyi işində Naxçıvanın çox böyük rolu olmuşdur. Məhz o illərdə ulu öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin bayrağını Naxçıvanda rəsmi bayraq kimi təsdiq etdi və Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırılmışdı ki, bu bayraq dövlət bayrağı kimi qəbul edilsin. Ancaq o vaxt Azərbaycan rəhbərliyi buna imkan vermədi.

Ardı Səh. 4



# İlham Əliyev: “Naxçıvan uğurla, sürətlə inkişaf edir”

## *Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfər edib*



**Əvvəli-Səh-3**

O vaxt Naxçıvan “Naxçıvan Muxtar Sovet Sosialist Respublikası” adlanırdı və Ulu Öndərin təklifi ilə bu addan sovet, sosialist sözləri çıxarıldı. Bu, sovet dövründə baş vermişdir. Sovet İttifaqının saxlanmasına dair referendum Naxçıvanda keçirilmədi. Bütün bu işlər böyük cəsarət tələb edirdi. Bütün bu işlər onu göstərirdi ki, Ulu Öndər həmişə müstəqillik arzuları ilə yaşayırdı. Azərbaycanın dövlət müstəqilliyinin təmin edilməsində Ulu Öndərin və naxçıvanlıların çox böyük rolu vardır.

Ondan sonrakı dövrdə də Ulu Öndər Azərbaycan Prezidenti kimi həmişə Naxçıvana diqqət, qayğı göstərirdi. Naxçıvana tez-tez səfərlər edirdi. Bu yaxınlarda Ulu Öndərin 95 illiyinə həsr edilmiş təntənəli mərasimdə çıxış edərkən, o cümlədən onun Naxçıvan dövrü haqqında söz açmışdım. Bildirmişdim ki, Heydər Əliyev siyasəti bu gün də Azərbaycanda yaşayır, davam edir, əbədi yaşamalıdır və yaşayacaqdır.

Biz bu siyasətin gözəl nəticələrini ölkəmizin hər bir yerində görürük, o cümlədən Naxçıvan Muxtar Respublikasında. İndi də demək istəyirəm ki, burada aparılan işlər çox yüksək qiymətə layiqdir, çox böyük zəhmət, çox böyük məhəbbət tələb edir. Görürəm ki, bütün işlər böyük məhəbbətlə, böyük zövqlə görülür ki, insanlar üçün yaxşı şərait yaradılsın, Naxçıvan Muxtar Respublikası bundan sonra da uğurla inkişaf etsin.

Mən də Ulu Öndərin siyasi xəttinə sadiq qalaraq bütün sahələrdə, o cümlədən Naxçıvana qayğı, diqqət məsələlərində o yolu davam etdirirəm. Bu səfər mənim Prezident kimi Naxçıvana sayca 14-cü səfərimdir. Prezident kimi ilk dəfə Naxçıvana düz 14 il bundan əvvəl - 2004-cü ilin may ayında gəlmişdim. Bu 14 il ərzində Naxçıvanda gedən işləri daim diqqətdə saxlamışam və respublikanın uğurlu inkişafı üçün nə lazımdırsa biz onu da edirik.

İlk növbədə, Naxçıvanın təhlükəsizliyi məsələləri ilə bağlı çox böyük işlər görülüb. Siz burada düşmənlə üz-üzə yaşayırsınız, yaradırsınız. Əlbəttə ki, ilk növbədə, Naxçıvan Muxtar Respublikasının uğurlu inkişafı üçün təhlükəsizlik tədbirləri ön planda və prioritet məsələ olmalıdır. Biz bunu belə də qəbul edirik. Naxçıvanın hərbi potensialının gücləndirilməsində böyük işlər görülüb. Azərbaycan Silahlı Qüvvələrinin tərkib hissəsi olan Naxçıvan Ordusu ən müasir silahlar, texnika ilə təchiz edilmişdir. Biz son illər ərzində Azərbaycan Ordusunu böyük dərəcədə gücləndirə bilmişik. Alınan müasir texnikanın demək olar ki, bütün növləri, yaxud da ki, əksər növləri Naxçıvana göndərilir. Naxçıvanın yerləşməsinə, coğrafi relyefinə uyğun şəkildə bütün müasir texnikalar göndərilir. Bu gün Naxçıvan Ordusu böyük qüvvəyə malikdir və düşmənin istənilən təxribatının qarşısını ala bilər və eyni zamanda, uğurlu əks-hücum əməliyyatı keçirə bilər. Naxçıvanda yerləşdirilmiş müasir silahlar, o cümlədən uzaqmənzilli raketlər düşmənin istənilən hərbi hədəfini məhv edə bilər. Yəni, təhlükəsizlik məsələləri tam təmin olunub. Bu məsələ daim diqqət mərkəzindədir. Əlbəttə, bu, imkan verir ki, Naxçıvan uğurla, sürətlə inkişaf etsin. Burada böyük infrastruktur layihələri icra edilibdir. On ildən çoxdur ki, Naxçıvan Muxtar Respublikasının qazlaşdırılması ilə bağlı məsələlər öz həllini tapıb. Qazlaşdırma 100 faiz təmin edilibdir. Biz hələ Azərbaycanın ümumi qazlaşdırılmasını təqribən 93-94 faiz səviyyəsində təmin edə bilmişik, bu ilin sonuna qədər 95 faizə çatacaq. Ancaq Naxçıvan Muxtar Respublikasında artıq on ildən çoxdur ki, qazlaşdırma 100 faiz təmin edilibdir.”



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Naxçıvan şəhər Təmizləyici Qurğular Kompleksinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlətimizin başçısına kompleks barədə məlumat verdi.

Bildirildi ki, kompleks giriş nasos stansiyasından, hovuzlardan, inzibati, transformator, kompressor binalarından, suvarma üçün nəzərdə tutulan su hovuzundan ibarətdir. Burada, həmçinin iri tullantı tutucu, qum və yağ tutma, membran tipli təmizləyici, palçıqqurutma, havatəmizləyici qurğular quraşdırılıb. Ümumilikdə, bu qurğunun fəaliyyəti 121 min istifadəçini əhatə edir. İcrasına 2014-cü ildə başlanılan layihə ötən ilin oktyabrında tamamlanıb. Qurğunun xidmət sahəsi Naxçıvan şəhəri, Qaraxanbəyli, Qaraçuq, Bulqan, Hacınıyyət, Tumbul, Babək rayonunun Şıxmahmud və Xəlilli kəndlərini əhatə edir. Bu qurğunun gücü gündə 32 min kubmetr və ya saniyədə 370 litrə bərabərdir. Kompleksdə bioloji fosfor təmizləmə hovuzu, oksigensiz hovuz, havalandırma hovuzu, suvarma su hovuzu inşa edilib. Buradakı hovuzların tutumu 25 min 650 kubmetrdir. Təmizləyici Qurğular Kompleksinin yerləşdiyi sahə 2,62 hektardır ki, bunun da 2 hektarı tullantıların saxlanması və qurudulması sahəsinə aiddir. Burada bioreaktor və membran tipli təmizləyici qurğu quraşdırılıb. Çirkab sutəmizləyici qurğu 3 mərhələli təmizləmə sistemindən ibarətdir. Kompleksdə təmizləmə prosesi fiziki, bioloji və membran təmizləmə üsulları ilə aparılır. Təmizlənmiş su isə ozonla dezinfeksiya olunaraq suvarma hovuzuna verilir. Layihənin icrası nəticəsində 500 hektar torpağın suvarılması mümkün olacaq. Prezident İlham Əliyev kompleksi işə saldı. Sonda xatirə şəkli çəkdirildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Naxçıvan şəhər Qaraxanbəyli inzibati ərazi dairəsində 480 şagird yerlik 6 saylı tam orta məktəbin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı məktəbin binasının rəmzi açılışını bildirən lenti kəsdi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin “Neft Azərbaycanın milli sərvətidir” deyimi yeni yüzillikdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin tarixində başqa bir modeldə həqiqətə çevrildi. Azərbaycan Prezidentinin dünya ictimaiyyətinə ünvanladığı “Qara qızılı insan kapitalına çevirmək” mesajı 2003-cü ildən başlayaraq dövlət siyasətinin mühüm tərkib hissəsi oldu. Çünki müasir dünyada hər bir ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür.

Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da təhsildəki nailiyyətlər göz qabağındadır. Bu nailiyyətlər istər bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsində, istərsə də yeni təhsil müəssisələrinin inşasında özünü daha aydın göstərir. Təhsil sahəsi hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Azərbaycan da bu ölkələr sırasındadır. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək istəyir. Bundan başqa, zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca amil seçib.

Prezident İlham Əliyev məktəbdə yaradılan şəraitlə tanış oldu.

Məktəbin binası üçmərtəbəlidir. Binada iki kompüter sinfi, 3 elektron lövhəli sinif, fizika, kimya və biologiya laboratoriyaları, 2 şahmat sinfi, hərbi kabinet, 24 ümumi sinif otağı, müəllimlər otağı və idman zalı var. Məktəbin həyətində qazanxana və bufet binası tikilib. Bir sözlə, burada şagirdlərin təlim-tərbiyəsi ilə məşğul olmaq üçün hərtərəfli imkanlar mövcuddur.

*Ardı Səh.*

# İlham Əliyev: "Naxçıvan uğurla, sürətlə inkişaf edir"

## *Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfər edib*





Əvvəli-Səh-4

Son illərdə Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da yeni-yeni təhsil ocaqlarının yaradılması, mövcudlarının əsaslı şəkildə müasir səviyyədə yenidən qurulması dövlət səviyyəsində təhsil sahəsinə olan diqqətin təzahürüdür. Bütün bunlar gələcək nəslin bilikli, savadlı və intellektual səviyyəyə malik bir vətəndaş kimi yetişməsində mühüm rol oynayır. Ümumilikdə, son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda təhsilin, elmin inkişafına istiqamətlənən çox mühüm layihələr icra olunub. Təsadüfi deyil ki, son illərdə ölkə ərazisində 3 mindən çox məktəb tikilib, bir çox məktəb binaları üçün yeni korpuslar inşa olunub. Bununla da təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində əhəmiyyətli addımlar atılıb. Bütün bunlar isə Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da təhsilin keyfiyyətinə müsbət təsir göstərib.

Sərhəd Xidmətinin Naxçıvan şəhər Qaraçuq ərazi dairəsində Əmiraslan Əliyev adına Sərhəd Dəstəsində yaradılan şəraitlə tanış olub.

Üçrəngli bayrağımızın Silahlı Qüvvələrdə ilk dəfə 1992-ci il avqustun 22-də Naxçıvan Sərhəd Dəstəsində qaldırılması, şimal və şimal-qərb sərhədlərimizdə ilkin zəruri infrastrukturların yaradılmasından tutmuş Dövlət Sərhəd Xidmətinin təşkilinə qədər bütün proseslər ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider Heydər Əliyevin Sərhəd Qoşunlarının formalaşdırılması istiqamətində verdiyi qərarların nəticəsində Azərbaycan öz sərhədlərini müstəqil qorumağa qadir olan ölkəyə çevrildi. Müstəqil dövlətimizin sərhədlərinin etibarlı qorunmasının yüksək səviyyədə təşkili sonrakı dövrdə də prioritet oldu. Ulu Öndərin siyasətini uğurla davam etdirən Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ordu quruculuğunun əsas istiqamətlərindən olan Sərhəd Qoşunlarını da dövlət qayğısı ilə əhatə etdi. Ali Baş Komandanın ölkəmizin sərhədçiləri ilə çoxsaylı görüşləri Dövlət Sərhəd Xidmətinin inkişafına, ölkəmizin sərhədlərinin mühafizəsinə göstərilən diqqət və qayğının əyani təzahürünə çevrildi. Təsadüfi deyil ki, son illərdə Dövlət Sərhəd Xidmətinin fəaliyyəti keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Xidmətin maddi-texniki bazasının gücləndirilməsi, yeni sərhəd dəstələri və zastavalarında müasir şəraitin yaradılması əlbəttə ki, Sərhəd Qoşunlarının inkişafına göstərilən qayğının bariz nümunəsidir. Məlumat verildi ki, Əmiraslan Əliyev adına Sərhəd



Dəstəsinin qərargah və yataqxana binası üç mərtəbədən ibarətdir. Binada rabitə, xidmət, silah, yataq otaqları, mətbəx, əsgər və zabit yeməkxanası yaradılıb. Binanın ikinci mərtəbəsində hərbçilər üçün 16 yerlik yataqxana, 48 yerlik əsgər yataqxanası və 4 yerlik zabit yataqxanası yerləşir. Burada ərzaq mağazası və əsgərlər üçün əlavə ləvazimatların satışı dükanı da hərbçilərə xidmət göstərəcək. Binada, həmçinin ikiotaqlı 4 mənzil də var.

Dövlətimizin başçısı ölkədə sərhəd xidmətinin təkmilləşdirilməsinə dair kompleks tədbirlərin həyata keçirilməsini və sərhəd dəstələrinin fəaliyyətinin ən müasir tələblər səviyyəsində qurulmasını daim diqqət mərkəzində saxlayır. Havada, suda və quruda sərhədlərin etibarlı şəkildə qorunmasını təşkil etmək üçün bütün zəruri tədbirlər görülür. Bu işlərlə yanaşı, sərhədçilərin mənzil-məişət, sosial məsələlərinin həllinə də daim diqqət göstərilir. Sərhəd Dəstəsinin texniki binasında əsgərlər üçün müasir səviyyədə hamam və camaşırxana, ərzaq, əşya və silah anbarları, avtomobillərin saxlanması üçün qaraj da tikilib. Ərazidə kinoloji xidmət üçün 7 yerlik və atlar üçün 12 yerlik sahələr yaradılıb. Ərazidə genişmiqyaslı abadlıq-quruculuq işləri aparılıb, yaşıllıqlar salınıb. Burada hərbçilərin idmanla məşğul olmaları üçün hər cür şərait yaradılıb. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Ordusunun "N" saylı hərbi hissəsindəki Təlim-Tədris Mərkəzində yaradılan şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordusunun komandanı general-leytenant Kərəm Mustafayev dövlətimizin başçısına raport verdi.

Ölkəmizdə yeni hərbi hissələrin yaradılması, mövcud hərbi hissələrdə infrastrukturun müasirləşdirilməsi istiqamətində mühüm işlər görülür. Bu baxımdan Naxçıvan Muxtar Respublikasında da böyük əhəmiyyətə malik layihələr icra olunub. Bu gün muxtar respublikanın müdafiə potensialı və gücü durmadan artır. Ümumilikdə, ölkəmizdə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində bu gün hərbi hissələrin komplektləşdirilmə faizi və keyfiyyəti yüksək səviyyədədir, əsas komanda-qərargah vəzifələrinin peşəkar, ali hərbi təhsili olan mənəvi, fiziki və psixoloji cəhətdən hazırlıqlı, döyüş təcrübəsi toplamış zabitlərlə təmin olunması ardıcıl şəkildə həyata keçirilir. Bununla yanaşı, birinci əməliyyat eşelonu birliklərində dayanıqlı müdafiənin təmin olunması istiqamətində əməli tədbirlər görülüb, müdafiə sistemi təkmilləşdirilib, qoşunların döyüş qabiliyyəti yüksək səviyyədə saxlanılıb. Ordunun döyüş qabiliyyətinin daha da artırılması, əməliyyat işləri üzrə hazırlığın gücləndirilməsi ilə bağlı birlik və birləşmələrin xeyli sayda komanda-qərargah təlimi keçirilib. Bu təlimlərə Silahlı Qüvvələrin müxtəlif qoşun birləşmələri cəlb olunub və həmin təlimlərdə ən müasir tələblərə cavab verən simulyator və kompüter şəbəkələrindən istifadə edilib. Son illərdə ordunun müasir silah və texnika ilə təchiz olunması istiqamətində də əməli tədbirlər görülüb. Dövlətimizin başçısının təşəbbüsü ilə 2005-ci ildən fəaliyyət göstərən Müdafiə Sənayesi Nazirliyinin yenidən qurulan müəssisələrində istehsal olunan silah və texnika hazırda ordumuzun maddi-texniki təchizatında aparıcı rol oynayır. Yeni yaradılan hərbi hissədə əsgər yataqxanaları, Əsgəri-Məişət Kompleksi, Təlim-Tədris Mərkəzi, qərargah binası, xəstəxana inşa olunub, sıra meydanı, idman şəhərciyi salınıb. Sonra Prezident İlham Əliyev Əlahiddə Ümumqoşun Ordusunun "N" saylı hərbi hissəsinin yeni hərbi xəstəxanasının açılışını etdi.

Dövlətimizin başçısı xəstəxana binasının rəmzi açılışını bildirən lenti kəsdi.

Sonra dövlətimizin başçısı silahlanmaya yeni qəbul edilən hərbi texnika ilə tanış oldu.

Yüz illiyini qeyd etməyə hazırlaşdığımız Azərbaycan Silahlı Qüvvələri bu gün dünyanın ən güclü 50 ordusu sırasındadır. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yeni inkişaf dövrünü yaşayan ordumuzda həyata keçirilən islahatların nəticəsidir ki, Azərbaycan əsgəri havada, suda və quruda Vətənin maraqlarını şərəflə qoruyur. Yüksək döyüş, mənəvi-psixoloji hazırlığı ilə seçilən Azərbaycan Ordusu bu gün həm də ən müasir silah-sursat, hərbi texnika ilə təmin olunur. Silahlı Qüvvələrimizin balansında olan bu müasir texnika bir çox özəllikləri ilə seçilir. Ən əsası isə odur ki, ordumuz bu cür müasir silah-sursatın, hərbi texnikanın vasitəsilə Ali Baş Komandanın əmri ilə istənilən anda düşmənə sarsıdıcı zərbə vura və tarixi torpaqlarımızı işğaldan azad edə bilər. Azərbaycan əsgəri bunu düşmənə dəfələrlə sübut edib. Bu gün Azərbaycan Ordusunun arsenalı dünyanın aparıcı ölkələrinin istehsalı olan silah-sursatla genişlənir. Mühüm məqam ondan ibarətdir ki, son illərdə dövlətimizin başçısı, Ali Baş Komandanın diqqəti sayəsində ölkəmizdə yaradılan müdafiə sənayesi kompleksi Azərbaycanda ən müasir hərbi texnikanın, silah-sursatın istehsalına imkan verir. Təsadüfi deyil ki, indi ordumuzun silah-sursatı bir çox parametrlərinə görə dünyada ilk yerlərdən birini tutur. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son illərdə maddi-texniki bazası daha da möhkəmlənən Azərbaycan Silahlı Qüvvələri haqlı olaraq dünyanın ən qüdrətli ordularından biri kimi tanınır, hərbçilərimizin peşəkarlıq səviyyəsi getdikcə daha da artır, nəticə etibarilə Azərbaycanın ordu və müdafiə potensialı güclənir.

# Prezident İlham Əliyev XXIV Azərbaycan Beynəlxalq Qida Sənayesi və XII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı sərgiləri ilə tanış olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Bakı Ekspo Mərkəzində XXIV Azərbaycan Beynəlxalq Qida Sənayesi “World Food Azerbaijan 2018”, XII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı “Caspian Agro 2018” sərgiləri ilə tanış olub. AZƏRTAC xəbər verir ki, kənd təsərrüfatı naziri İnam Kərimov dövlətimizin başçısına sərgilərlə bağlı məlumat verdi.

Bildirildi ki, ötən illə müqayisədə bu il “WorldFood Azerbaijan” və “Caspian Agro” sərgiləri həm iştirakçıların sayı, həm də ekspozisiya sahəsi baxımından 12 faiz artım nümayiş etdirib və region üzrə bütün ixtisaslaşmış sərgilər arasında ikinci yeri tutur. Bakı Ekspo Mərkəzinin iki zalında və kompleksin açıq platformasında yerləşən sərgilərə dünyanın 34 ölkəsindən 402 şirkət qatılıb və bu şirkətlərin 70 faizini xarici, 30 faizini isə yerli istehsalçı və distribütorlar təşkil edir. Bu ölkələrin ticarət və sənaye palatalarının dəstəyi ilə şirkətlərin böyük milli qruplar ilə iştirakı sərginin vizit kartına çevrilib. Bu il sərgilərdə dünyanın 10 ölkəsini təmsil edən 12 milli və regional qrup iştirak edir.

Prezident İlham Əliyev “Azərsun Holdinq” Şirkətlər Qrupunun stendi ilə tanış oldu. Diqqətə çatdırıldı ki, 1991-ci ildən etibarən Azərbaycanda fəaliyyətə başlayan şirkət qida sektorunda əhəmiyyətli paya malikdir. Şirkətin zavodlarında geniş ixracat şəbəkəsi mövcuddur. Ölkə iqtisadiyyatına xeyli sərmayə qoyan “Azərsun Holdinq” bu müddət ərzində istehlakçıların rəğbətini qazana bilib.

“Grow Group Azərbaycan” şirkətinin stendi ilə tanışlıq zamanı məlumat verildi ki, istixanaların satışı və quraşdırılması sahəsində ixtisaslaşan şirkətin məhsulları ən son standartlara cavab verməklə yanaşı, tam avtomatlaşdırılmış müasir plastik və şüşə istixana komplekslərinin hazırlanmasını əhatə edir. “Grow Group Azərbaycan” 2009-cu ildən başlayaraq beynəlxalq şirkətlərlə əməkdaşlıq şəraitində dünyanın 80-dən çox ölkəsində müasir standartlara cavab verən məhsulları ilə diqqəti cəlb edir. Sərgidə iştirak edən digər şirkət - “Grand Motors” MMC Azərbaycan bazarının tikinti, kənd təsərrüfatı, istirahət və əyləncə sektorunu hədəf götürüb və fəaliyyətini bu istiqamətdə qurub. Bu baxımdan, “Grand Motors” MMC ağır texnika və yük avtomobillərinin Azərbaycan Respublikasına idxalını və satışını həyata keçirir. Dünyada tanınmış 14 istehsalçının Azərbaycanda rəsmi təmsilçisidir. Bu istehsalçılardan biri də “Nyu Holland”dır. “Nyu Holland” müştərilərə məhsuldarlıq, təhlükəsizlik və ətraf mühitin mühafizəsini vəd edir.

“Maschio Gaspardo” şirkəti torpaq və quruntun işlənilməsi, əkin aqreqatları, ot biçini və yığımı, gübrələrin verilməsi üçün nəzərdə tutulan kənd təsərrüfatı avadanlıqlarının istehsalı üzrə liderdir. Şirkət 10 iri istehsal mərkəzindən ibarətdir və dünyada bir sıra kommersiya filialları ilə təmsil olunur.

150 illik tarixə malik “Göygöl şərab zavodu” ASC Azərbaycanın ən qədim şərab emalı müəssisəsidir. 1860-cı ildə yaradılan müəssisənin 507 hektarlıq üzüm təsərrüfatı var. Zavodda istehsal olunan şərab xüsusi materialdan hazırlanan çənlərdə standartlara uyğun saxlanılır. Şirkət müxtəlif növ spirtli və alkoqolsuz sərinləşdirici içkilər istehsalı ilə bazarda önəmli yer tutur.

Sərgidə xüsusi pavilyonla təmsil olunan Gürcüstan bu beynəlxalq tədbirə öz kənd təsərrüfatı məhsullarını təşviq etmək və onların beynəlxalq miqyasda tanıdılması baxımından böyük əhəmiyyət verir. Gürcüstanın Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyi bu sərgidə ilk dəfə 2015-ci ildə iştirak edib və “Ən yaxşı ölkə təqdimatı” sertifikatına layiq görülüb. Builki sərgidə Gürcüstanı 10-a yaxın şirkət təmsil edir.

Azərbaycan Nar İstehsalçıları və İxracatçıları Assosiasiyası 2016-cı ildə fəaliyyətə başlayıb. Ölkəmizdə narçılığın inkişaf etdirilməsini, narın xarici bazarlara çıxarılmasını və ixrac miqyasının yeni bazarlar hesabına genişləndirilməsini qarşıya məqsəd qoyan assosiasiya hazırda “Made in Azerbaijan” brendi ilə məhsul istehsalını təşviq edir.

İtaliyanın “Antonio Carraro” şirkəti istehsal etdiyi kənd təsərrüfatı texnikasının satışının dünya bazarında stimullaşdırılması ilə bağlı tədbirlər görür. Bakıda keçirilən builki sərgiyə şirkətin göstərdiyi maraq da məhz bundan qaynaqlanır.

Yerli şirkətlərdən olan “Gilan Pivot” MMC-nin fəaliyyəti də maraq doğurur. Neftçala Sənaye Məhəlləsinin ərazisində yerləşən MMC-də investisiya dəyəri 1 milyon manat olan istehsal sahəsi yaradılıb. Bu müəssisədə ildə 400 ədəd suvarma sistemi istehsal edilə bilər. Bu isə 20 min hektar əkin sahəsinin suvarılması deməkdir. Rusiyanın “Rostselmaş” şirkəti də builki sərgidə fəal iştirak edir. Eyni ad altında avadanlıq istehsal edən 13 müəssisədən ibarət olan şirkətin məhsul xəttinə 24 növ texnika və 150-dən çox model və modifikasiya daxildir.

Sərginin fəal iştirakçıları sırasında olan “Fruit Life” şirkəti Avropa İttifaqı və Yunanıstanın köməyi ilə maliyyələşdirilən kampaniyadır və Aİ standartlarına uyğun məhsulların bazara çıxarılmasını təmin edir.

Belarus Respublikası da bu sərgidə bir neçə şirkətlə təmsil olunur. “Belin-ter-ekspo” bu ölkənin milli ekspozisiya və pavilyonlarının rəsmi operatorudur. Sərgidə Belarusun kənd təsərrüfatı və qida sənayesində ixtisaslaşmış şirkətləri öz məhsullarını təqdim edir. Bura Azərbaycanda da fəaliyyət göstərən “Belaruski” ticarət şəbəkəsinin, Belarusun ən iri özəl baytarlıq preparatları hazırlayan şirkətlərindən olan “Beleko-texnika”nı daxil etmək olar. Sərgidə Yunanıstan ayrıca stendlə təmsil olunur. Altay diyarı Rusiyada ekoloji təmiz qida məhsullarının ən böyük istehsalçısıdır. Sərgidə ayrıca stendi olan bu diyarın məhsulları ixrac üçün nəzərdə tutulub və bütün beynəlxalq tələblərə uyğundur.

2016-cı ildən fəaliyyətə başlayan “Balxurma” müəssisəsi quru və yarım-quru meyvələrin istehsalı sahəsində öndə gedən, avtomatlaşdırılmış texniki avadanlıqla təchiz olunan, nəzdində yuyulma, soyulma, soyutma və qablaşdırma sexləri fəaliyyət göstərən, müasir standartlara cavab verən müəssisədir.

Avropa bazarında kifayət qədər tanınan Latviya Mərkəzi Südçülər Assosiasiyasının “Milk-river” kampaniyasının məqsədi Aİ ölkələrində istehsal olunan süd məhsullarının rəqabətqabiliyyətliliyinin təşviqi və ABŞ, Birləşmiş Ərəb Əmirliyi, İsrail, Azərbaycan və Çin kimi ölkələrdə bazar payının artırılmasıdır. İtaliya builki sərgidə bir çox şirkətlə təmsil olunur. Dünyada kənd təsərrüfatı sahəsində məşhur olan İtaliya şirkətləri sərgidə öz kənd təsərrüfatı texnikalarını və məhsullarını təqdim edirlər. Bu ölkənin stendində qida məhsullarının emalı, soyuducu, yuyucu, təmizləyici avandanlıq istehsalı üzrə ixtisaslaşan italyan şirkətləri barədə də geniş məlumat almaq mümkündür.



Türkiyə həmişəki kimi, sərgidə daha çox şirkətlə təmsil olunan ölkələrdən biridir. Qardaş ölkə builki sərgiyə kənd təsərrüfatının və qida sənayesinin bir çox spektrlərini əhatə edən şirkətlərin məhsullarını çıxarıb. Plastik qablaşdırma sahəsində ixtisaslaşan Türkiyənin “Polipa” şirkətinin məhsulları sərgidə xeyli maraq doğurub. “Tekno-Ser” şirkəti isə irriqasiya və istixana komplekslərinin geniş çeşidini təqdim edir. Sərginin “Holland pavilyonu”nda Niderland Krallığının kənd təsərrüfatı və qida sektorunda fəaliyyət göstərən bir neçə şirkəti təmsil olunur. Onlar öz məhsullarını sərgi ziyarətçilərinə təqdim edirlər.

“ASAN xidmət”in nəzdində fəaliyyət göstərən “ABAD” publik hüquqi şəxs Prezident İlham Əliyevin Fərmanı ilə 2006-cı ildə yaradılıb. Ölkəmizin sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakına, kiçik və orta sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına və rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək olan ABAD mərkəzlərinin yaradılması istiqamətində görülən işlər artıq öz bəhrəsini verib. Ailə biznesini dəstəkləyən bu mərkəzlər istehsal olunan məhsulların ölkədə və xaricdə satışını həyata keçirməyə xidmət edir. Fəaliyyət göstərdiyi sahədə vahid dövlət siyasətinin hazırlanmasını və reallaşdırılmasını təmin edən Qida Təhlükəsizliyi Agentliyi qida məhsullarının təhlükəsizliyinə dair normativ tənzimləməni, risklərin təhlilini, qida məhsullarının qablaşdırma materiallarının dövlət qeydiyyatına alınmasını və digər funksiyaları həyata keçirir. Əsas diqqət genetik seleksiyaya məruz qalmış məhsulların istehlakdan kənarlaşdırılmasıdır.

Yerli “AMORİS” Məhdud Məsuliyyətli Cəmiyyəti meyvə və tərəvəz məhsullarının yetişdirilməsi sahəsində ixtisaslaşıb. Çoxillik təcrübəyə malik olan şirkət yeni bitki növlərinin yetişdirilməsi və “BİS” markası altında müştərilərə çatdırılmasını qarşıya hədəf qoyub. Litvanın “Svalya” şirkəti Baltikyanı regionda aparıcı mövqe tutur. Avropa İttifaqı və MDB məkanında böyük nüfuz qazanan şirkət süd və süd məhsullarının geniş çeşidinin istehsalı ilə məşğuldur.

Kənd təsərrüfatı texnikalarının ekspozisiyası həm Bakı Ekspo Mərkəzinin daxilində, həm də sərgi kompleksinin açıq platformasında yerləşir.

Sərgidə ölkəmizin kənd təsərrüfatının əsas istiqamətlərindən biri olan heyvandarlıq sahəsindəki nailiyyətləri də nümayiş olunur. “Gilan Kənd Təsərrüfatı” şirkətinin fəaliyyəti və şirkətin müəssisələrində yetişdirilən heyvan cinsləri məhsuldarlığı ilə diqqəti cəlb edir.

“Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin məqsədi kənd təsərrüfatı məhsulu istehsalçılarının maddi-texniki bazasını yaratmaq, sahibkarları lizinq yolu ilə texnika, mineral gübrə, damazlıq heyvanlar, texnoloji avadanlıq, suvarma sistemi ilə təmin etmək, məhsul istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslərə güzəştli qiymətlərlə aqroservis xidmətlərini göstərməkdir.

“Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyi müxtəlif modifikasiyalı Belarus traktorları, MAZ və KAMAZ yük avtomobilləri, avtomobil kranları, müxtəlif təyinatlı qoşqular, ekskavatorlar, xüsusi traktorlar və digər məhsulları ilə Azərbaycan və xarici bazarda böyük nüfuz qazanıb.

İtaliyanın “Landini” şirkəti də kənd təsərrüfatı traktorlarının geniş çeşidini təqdim edir. Müəssisənin Almaniya, Fransa, Cənubi Afrika, Kanada və ABŞ-da filialları fəaliyyət göstərir.

Prezident İlham Əliyev adları yuxarıda qeyd olunan şirkətlərin və ölkələrin stendləri ilə tanış oldu.

Beləliklə, “WorldFood Azerbaijan” və “Caspian Agro” sərgiləri bir daha aqrar sənaye kompleksinin mütəxəssisləri üçün növbəti görüş yerinə çevrildi.

Hər iki sərgi keçirildiyi illər ərzində özünü qida sənayesi üzrə avadanlığın, məhsul və xidmətlərin nümayiş olunduğu, eləcə də müştərilər tapmaq, biznes tərəfdaşları ilə mövcud əlaqələri möhkəmləndirmək və yeni satış bazarlarına çıxmaq üçün imkanların yaradıldığı etibarlı platforma kimi doğrultmağa müvəffəq olub. Sərgi mayın 18-dək davam edəcək.

# Ulu öndər Heydər Əliyevin 95 illik yubileyi münasibətilə Astanada qazax dilində “Vətəninə yol açmış” adlı kitabın təqdimatı olub




Ulu öndər Heydər Əliyevin 95 illik yubileyi münasibətilə mayın 16-da Astanada, Qazaxıstanın Birinci Prezidenti Kitabxanasında qazax dilində “Vətəninə yol açmış” adlı kitabın təqdimatı olub. AZƏRTAC xəbər verir ki, Lomonosov adına Moskva Dövlət Universitetinin tarixçi alimlərinin kollektiv əsəri olan bu kitab rus dilindən Beynəlxalq Türk Akademiyası tərəfindən qazax dilinə tərcümə edilib. Kitaba ön sözü vaxtilə ümummilli lider Heydər Əliyevin çox yaxın dostu olmuş Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev yazıb.

Qazaxıstan Prezidenti Administrasiyası Dəftərxanasının rəhbəri, Qazaxıstan Respublikası Birinci Prezidenti Kitabxanasının direktor əvəzi Mahmud Kasımbekov tədbiri açaraq bildirib ki, ulu öndər Heydər Əliyevin bütün mənalı ömrü məhz Azərbaycan dövlətçiliyinin təşəkkül tarixi, Azərbaycan xalqının taleyi ilə bağlıdır. Dağların hündürlüyü uzaqdan yaxşı görünür, amma görkəmli şəxsiyyətlərin böyüklüyü zaman keçdikcə daha çox anlaşılır. Heydər Əliyev təkcə Azərbaycan xalqının deyil, bütün türk dünyasının fəxr etdiyi həmin qeyri-adi liderlərdən biridir. Ulu öndər Heydər Əliyev ötən əsrin 90-cı illərinin əvvəllərində siyasi və iqtisadi böhrana məruz qalan Azərbaycan Respublikasını inkişaf yoluna çıxardı. Ölkənin müstəqilliyini dönməz və əbədi etdi. Azərbaycan xalqının Ümummilli Lideri haqqında kitabın qazax dilinə tərcümə edilməsi və məhz elbası Nursultan Nazarbayevin bu kitaba ön söz yazması qardaş xalqlarımız arasında dostluğun əyani təsdiqidir. Ön sözdə ümummilli lider Heydər Əliyevin fəaliyyətinə yüksək qiymət verilir, Azərbaycan-Qazaxıstan münasibətlərinin inkişafında bu dahi şəxsiyyətin mühüm rolu qeyd edilir.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovçıxışında Ulu Öndər haqqında çox qiymətli bir kitabın qazax dilinə tərcümə edilməsində əməyi olanlara minnətdarlığını bildirərək deyib ki, bu kitab Heydər Əliyevin uşaqlıq illərindən başlamış siyasi Olimpin zirvəsinə qədər keçdiyi yolu izləməyə, həm də bu böyük şəxsiyyətin nə qədər hərtərəfli olduğunu görməyə imkan verir. Bu tarixi-bioqrafik əsər həm də onunla əlamətdardır ki, burada ulu öndər Heydər Əliyevi şəxsən tanıyan dövlət və hökumət başçıları, görkəmli siyasi xadimlər bu dahi şəxsiyyətin böyüklüyünü və müdrikliyini xüsusi vurğulayırlar. Bu kitab təkcə beynəlxalq məsələlər üzrə mütəxəssislər üçün deyil, həm də geniş oxucu auditoriyasında maraq doğuracaq. Əsər bu il 95 illik yubileyi qeyd edilən Azərbaycan liderinin zəngin tarixi irsi ilə təmasda olmağa imkan verəcək.

Ulu öndər Heydər Əliyevin fenomenal şəxsiyyət olduğunu vurğulayan Əli Həsənov deyib ki, bu gün müasir Azərbaycanı onsuz təsəvvür etmək çətindir. Bu görkəmli siyasi xadim təkcə öz xalqının və Azərbaycan dövlətçiliyinin tarixində deyil, həm də bütün postsovet məkanında silinməz izlər qoyub. O, dünyada danılmaz nüfuz və dərin hörmət qazanıb.

Heydər Əliyevin iki epoxanın, iki sosial-siyasi sistemin lideri olduğunu qeyd edən Prezidentin köməkçisi bildirib ki, sovet dönəmində o, Azərbaycanda yüksək vəzifələr tutub. Respublikanın rəhbəri kimi Heydər Əliyev Azərbaycanı yeni inkişaf mərhələsinə çıxarıb. Onun modernləşmə yönümlü siyasəti sayəsində Azərbaycan keçmiş SSRİ-də aparıcı mövqelər tuta bilib. 1980-ci illərin əvvəlində Heydər Əliyev sovet dövlət maşınının sükanı arxasında dayananlardan biri idi. Sov. İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi o, sosial-iqtisadi kompleksin ən mühüm sahələrinə rəhbərlik edir, sənayedən, nəqliyyatdan başlamış mədəniyyətə qədər çoxsaylı sahələrə görə cavabdehlik daşıyırdı. Bundan əlavə, o, sovet məktəbinin islahatı üzrə komissiyaya, Nazirlər Sovetinin operativ məsələləri üzrə komissiyaya rəhbərlik edirdi. Qeyri-adi xarizmaya malik olan bu dahi insan vəziyyəti hiss etməyi bacarırdı, qərarlar qəbul etmək və bunun bütün nəticələrini öncədən görmək qabiliyyətinə malik idi. O, heç kəsin edə bilməyəcəyi riskli addımlar atmağı, öz fikrini açıq söyləməyi və qətiyyətlə o fikir üstündə dayanmağı bacarırdı. 1986-cı ili xatırlamaq kifayətdir. Almatı hadisələri ərəfəsində Heydər Əliyev Sov. İKP MK Siyasi Bürosunun rəhbərləri arasında yeganə şəxsiyyət idi ki, o, pensiyaya gedən Kunayevin yerinə Sov. İKP Ulyanovsk Vilayət Komitəsinin birinci katibi Kolbinin təyin edilməsinin əleyhinə olduğunu bildirmişdi. O deyirdi ki, nə üçün həmin dövrdə Qazaxıstan SSR Nazirlər Sovetinin sədri olan, böyük nüfuz sahibi Nursultan Nazarbayev ola-ola respublikaya heç bir aidiyyəti olmayan bir insan rəhbərlik etməlidir. Ulu öndər Heydər Əliyevin uzaqgörənliyi çox keçmədi ki, öz təsdiqini tapdı və üç ildən sonra Nursultan Abişeviç Qazaxıstanın rəhbəri təyin olundu, ölkəni bacarıqla idarə edərək onun qarşısında duran ən mühüm məsələləri həll edə bildi.

Əli Həsənov vurğulayıb ki, təqdimatına toplaşdığımız bu kitabı vərəqləyərkən ulu öndər Heydər Əliyevin müstəqillik illərində Azərbaycanın xilası naminə gördüyü əzəmətli işlərin də şahidi oluruq. Çox mürəkkəb dövrdə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev dövləti məhv olmaq təhlükəsindən xilas etdi, milli birliyi dirçəltdi, azərbaycançılıq ideyasını dövlət siyasəti səviyyəsinə qaldırdı, əsl siyasi-iqtisadi müstəqilliyin təməlini qoydu. Bir sözlə, o, yeni dövlət yarada bildi, ən başlıcası - öz xalqına müstəqillik və azadlıq verməyə nail oldu. Prezident Heydər Əliyev fəaliyyəti dövründə tarazlaşdırılmış və çoxvektorlu xarici siyasət yürüdür, ölkələr və xalqlar arasında, o cümlədən Qazaxıstanla qarşılıqlı anlaşmanın inkişafına və dostluq əlaqələrinin möhkəmləndirilməsinə çalışırdı. Bu da aydın idi. Axı bizi ortaq tarix, etnik və mədəni köklər, dillərimizin oxşarlığı birləşdirir. Bundan əlavə, Heydər Əliyev və Nursultan Nazarbayev hələ sovet dövründə birgə iş üzrə bir-birini tanıyırdılar, mehriban münasibətləri qiymətləndirirdilər. Bizim Ümummilli Liderimiz deyirdi ki, onlar çoxdankı dostlardır. Nursultan Abişeviç də Heydər Əliyevi açıqürəkli və səmimi insan hesab edərək xatırlayırdı ki, ona güvənə, ondan dəstək ala bilirdi. O deyirdi: “Heydər Əliyev mənim yaxın dostum və çox dərin hörmət bəslədiyim siyasətçi idi. Heydər Əliyevin istər MDB ölkələri üçün, istərsə də öz xalqı üçün çox işlər görməsi bizim hamımıza məlumdur”.

Prezidentin köməkçisi deyib ki, Azərbaycan ilə Qazaxıstan arasında iki qardaş lider tərəfindən yaradılmış bərabərhüquqlu, etimada əsaslanan tərəfdaşlıq münasibətlərini bu gün Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev uğurla davam etdirirlər. Əminəm ki, qardaş xalqlarımız arasında dostluq münasibətləri daim yaşayacaq və möhkəmlənəcək.

L.N.Qumilyov adına Avrasiya Milli Universitetinin rektoru Yerlan Sıdıkov qeyd edib ki, Heydər Əliyevin 95 illik yubileyi münasibətilə qazax dilinə tərcümə olunan kitab bizim üçün çox əhəmiyyətli hadisədir. Bu kitab Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin tarixi xidmətlərinin tərənnümüdür. Heydər Əliyev bütün türk dünyasının liderlərindən biridir. O, dünya səviyyəli görkəmli dövlət xadimi və siyasi xadimdir. Bu kitabı vərəqləyərkən bir daha şahidi oluruq ki, o, dəfələrlə müxtəlif məsələlərdə Qazaxıstanı dəstəkləyib. Dahi şəxsiyyət barədə qazax dilində çap olunan bu kitabdan əminəm ki, universitetimizdə beynəlxalq münasibətlər ixtisası üzrə təhsil alan tələbələr dərs vəsaiti kimi istifadə edəcəklər.

Milli Məclisin deputatı, Azərbaycan-Qazaxıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Adil Əliyev bildirib ki, ulu öndər Heydər Əliyev haqqında qazax dilində kitabın təqdimatının Astanada keçirilməsinin böyük rəmzi mənası var. Çünki qardaş Azərbaycan və qazax xalqları eyni köklərə, eyni dinə, oxşar dilə malikdir. Azərbaycan ilə Qazaxıstanı sıx qardaşlıq telləri bağlayır. Bu qardaşlığımızı Azərbaycan və Qazaxıstan prezidentləri öz müdrik siyasətləri ilə daha da möhkəmləndirirlər. Siz Ulu Öndər haqqında qazax dilində bu kitabı oxuyarkən bir daha yəqin edəcəksiniz ki, Heydər Əliyev Azərbaycan xalqının xilaskarıdır, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusudur. Ulu Öndər xalqlarımızın dostluğunun, rifahının möhkəmlənməsi naminə çox böyük işlər görüb. Bu siyasəti Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev uğurla davam etdirirlər.

Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırəli deyib ki, Azərbaycan xalqının tarixində müstəsna xidmətləri olan şəxsiyyətlər və görkəmli siyasət, dövlət adamları çox olub. Onlar zaman-zaman gördükləri böyük işlərlə iz buraxıblar. Amma bu tarixi şəxsiyyətlər arasında dünya miqyaslı siyasi xadim Heydər Əliyevin əvəzolunmaz yeri var. Sovet dönəmində Azərbaycanda ciddi islahatlar və quruculuq işləri həyata keçirən, müstəqillik illərində bu işləri böyük əzmlə davam etdirən Heydər Əliyev Azərbaycanın xilaskarı olub. Təsadüfi deyil ki, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Heydər Əliyevin tarixi xidmətləri haqqında danışanda deyirdi: “Heydər Əliyev öz ölkəsinin və xalqının vətənpərvəri, Azərbaycanda qan tökülməsinə son qoymuş, müstəqil Azərbaycanın əsasını yaratmış qeyri-adi, böyük insan idi”. Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti sayəsində Azərbaycan bu gün beynəlxalq birliyin nüfuzlu üzvü kimi etibarını gücləndirməkdə davam edir. Heydər Əliyev həm də Azərbaycanın bugünkü uğurlu və tarazlaşdırılmış xarici siyasətinin memarıdır. Heydər Əliyev türk dövlətlərinin inteqrasiyasına önəm verirdi. O, türkdilli dövlətlərin başçılarının 1998-ci ildə Astanada keçirilən beşinci Zirvə toplantısının əhəmiyyətini xüsusi qiymətləndirirdi.

Milli Məclisin deputatı, Azərbaycan-Qazaxıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Nizami Cəfərov bildirib ki, ulu öndər Heydər Əliyev haqqında qazax dilində bu kitabın təqdimatı tarixi hadisədir. Ulu öndər Heydər Əliyevin və Prezident Nursultan Nazarbayevin əsərləri onların qurduqları dövlətin, yürütdükləri siyasətin tarixi salnaməsidir. Azərbaycan və Qazaxıstan bu gün uğurla inkişaf edir. Bizim xalqlarımızın ortaq tarixi var. Böyük mədəniyyətimiz, zəngin adət-ənənələrimiz var. Qazax Xanlığının 550 illiyi Azərbaycanda qeyd edildi. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi Qazaxıstanda qeyd olunur. Bu baxımdan, qardaş ölkələrimizdə yürüdülən siyasət, dövlət quruculuğu yenilik deyil, ata-babalarımızın müəyyənləşdirdiyi inkişaf yoludur ki, bu gün də uğurla davam etdirilir. Mən təqdimatına toplaşdığımız kitabın bir vacib cəhətini də qeyd etmək istəyirəm. Bu cür kitablar qardaş ölkələrimiz arasında dil mədəniyyətini və əlaqələrini zənginləşdirir. Məhz Qazaxıstan və Azərbaycan dilinin qarşılaşması türk dünyasının rəmzidir. Əminəm ki, belə layihələr davamlı olacaq.

Kitabda ölkə rəhbərlərinin, dünya şöhrətli siyasətçilərin, elm və mədəniyyət xadimlərinin xatirələri ilə yanaşı, bəzi səkillər də ilk dəfə dərc olunub.

Tədbir zamanı Heydər Əliyev haqqında sənədli film nümayiş etdirilib.

Qazaxıstan mətbuatının nümayəndələrinə müsahibə verən Prezidentin köməkçisi Əli Həsənov tədbirin işıqlandırılmasına görə onlara minnətdarlığını bildirib.

***İlahə Əhmədova***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Astana***



# Səməd Seyidov: “AŞPA-nın son qərarı Azərbaycana qarşı ikili standartların bariz nümunəsidir”

Azərbaycan Avropa Şurasının müxtəlif strukturları ilə əməkdaşlıq edir. Lakin bu, o demək deyil ki, Avropa Şurasının müxtəlif strukturlarında ölkəmizə qarşı qərəzli mövqe mövcud deyil. Mayın 15-də Avropa Şurası Parlament Assambleyasında (AŞPA) qəbul edilən qərar da bu ikili standartların bariz nümunəsidir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov mayın 15-də keçirdiyi mətbuat konfransında söyləyib.

Səməd Seyidov bildirib ki, Avropa Şurasında sağlam qüvvələr olsa da, Azərbaycana qarşı olan qüvvələr, erməni lobbisi ölkəmizlə bağlı qərəzli mövqe nümayiş etdirirlər. Azərbaycan nümayəndə heyəti rəhbərinin adı bu siyahıya qərəzli şəkildə salınıb. Azərbaycan nümayəndə heyətinin rəhbərinə qarşı qəbul edilən sanksiya nə bizim söz demək imkanlarımıza, nə də hansısa sənədlərin hazırlanmasına məhdudiyyət yarada bilər. Bu, Azərbaycanın qurumda normal fəaliyyətinə, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasına heç bir əngəl yaratmayacaq. Azərbaycan AŞPA-da fəaliyyətini davam etdirəcək.

## Aydın Mirzəzadə: “Dövlət müstəqilliyimizin bərpası tarixi hadisə idi”



“Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın tarixinin çox şərəfli səhifələrindən biridir”. Bunu SİA-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə deyib. Deputatın sözlərinə görə, 100 illik fasilədən sonra xalqımızın dövlət müstəqilliyini bərpa etməsi tarixi hadisə idi: “Bu, çox təəssüf ki, həmin dövrdə cəbhədə gedən proseslər müstəqilliyimizin davam etməsinə imkan vermədi. Amma cəmiyyətimiz həmişə bununla bağlı xoş xatirələr yaşayırdı. Azərbaycan Prezidenti cənab İlham Əliyevin ötən il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı verdiyi sərəncam cəmiyyətdə böyük razılıqla qarşılandı. Bu, ilk növbədə, tariximizə çox böyük sayqı ilə yanaşmanın, Azərbaycan Xalq Cümhuriyyətinin uğurlarının məntiqi olaraq davam etməsinin göstəricisi idi. Ən əsası isə 100 il bundan əvvəl Cümhuriyyətin başladığı işin indi müstəqil Azərbaycan dövləti tərəfindən uğurla davam etdirilməsi kimi qəbul edilə bilər. Cənab Prezidentimiz ilk növbədə AXC dövrünün öyrənilməsinin, ona sahib çıxmasının vacibliyini ortaya qoydu. Özünü Azərbaycanın Vətəninə bağlı olan çox dəyərli bir vətənpərvər övladı kimi göstərdi. Biz dövlətçiliyimizin tarixinin öyrənilməsinin, onun uğurla davam etdirilməsinə vacib bir hadisə olduğunu bir daha cənab Prezidentin bu məsələyə diqqəti ilə görürük”.

## “Dini radikalizm və ekstremizmə qarşı mübarizə: mənəvi və hüquqi müstəvidə” mövzusunda seminar keçirilib

Dövlət Sərhəd Xidməti ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə tədbirlər planına uyğun olaraq, Göytəpə Sərhəd Dəstəsinin qarnizonunda “Dini radikalizm və ekstremizmə qarşı mübarizə: mənəvi və hüquqi müstəvidə” mövzusunda seminar keçirilmişdir.



Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən “Səs”



qəzetinə verilən məlumata əsasən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərovun iştirakı ilə keçirilən seminarda dini radikalizmin törətdiyi fəsadlar geniş izah olunmuş, bəzi qüvvələrin din pərdəsi altında ölkəmizin ictimai-siyasi sabitliyinə, dövlətimizin hüquqi-demokratik əsaslarına qarşı yönəldilmiş pozuculuq fəaliyyətləri, vətəndaşlarımızı xarici dini ekstremist qrupların, onların silahlı dəstələrinin tərkibinə qoşmaq cəhdləri qətiyyətlə pislənmiş və bu cür əməllər törətməyə cəhd edənlərə qarşı dövlət qurumları tərəfindən görülən tədbirlər haqqında ətraflı məlumat verilmişdir.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində, ölkəmizdə müxtəlif dinlərə etiqad edən insanların mehriban və qarşılıqlı hörmət şəraitində yaşadıqları, respublikamızın tolerantlıq və multikulturalizm nümunəsinə çevrildiyi xüsusi qeyd olunmuşdur. Seminarda dini amillərdən yararlanaraq radikallığa cəhd göstərən qüvvələrə qarşı mübarizədə hamının, xüsusən, gənc nəslin sayıqlıq göstərməsinin zəruriliyi vurğulanmışdır. Tədbirin sonunda dini radikalizmin törətdiyi fəsadlara həsr edilmiş “Şəhadət” sənədli filmi nümayiş etdirilmişdir.

*Zümrüd BAYRAMOVA*

## “Azərbaycanda qida zəncirinin bütün mərhələlərində iştirak edən subyektlərin sayı getdikcə artır”



Azərbaycanda münbit rəqabət şəraiti yaradıldığı üçün xarici şirkətlərin buradakı fəaliyyəti də genişlənir. Azərbaycanda kənd təsərrüfatı və qida sənayesinə olan diqqətin nəticəsidir ki, həm xarici şirkətlərin, həm də Azərbaycanda istehsal edilən qida zəncirinin bütün mərhələlərində iştirak edən subyektlərin sayı getdikcə artır.

AZƏRTAC xəbər verir ki, bu sözləri Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli mayın 16-da Bakıda keçirilən XXIV Beynəlxalq Qida Sənayesi, XII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı və Xəzər Beynəlxalq Qablaşdırma, Tara, Etiket və Poliqrafiya sərgilərinin açılış mərasimində jurnalistlərə müsahibəsində deyib. Builki sərgilərdə iştirak edən şirkətlərin 70 faizini xarici, 30 faizini isə yerli şirkətlər olduğunu xatırladan agentlik sədri bunu çox sevindirici hal adlandırıb. Agentliyin sədri bildirib ki, sərgilərdə iştirak edən şirkətlərin sayı durmadan artır ki, bu amil Prezident İlham Əliyevin iqtisadi sahədə apardığı mütərəqqi islahatların bariz göstəricisidir.

## Ermənistanda nümayişçilər Yerevan meriyasına giriblər

Ermənistanda Yerevanın meri Taron Marqaryanın istefasını tələb edən nümayişçilər şəhər meriyasının binasına giriblər. AZƏRTAC RİA Novosti agentliyinə istinadla xəbər verir ki, nümayişçilər merin iş otağına qədər gedib çıxıblar. Polis və meriya əməkdaşları onların qarşısını almaq üçün hərəkətə keçiblər. Xatırladaq ki, merin istefası tələbi ötən həftədən başlayıb. Taron Marqaryan Ermənistanın sabiq baş naziri Andranik Marqaryanın oğludur. O, 2011-ci ildən Yerevanın meri vəzifəsində çalışır.



## Çavuşoğlu ABŞ dövlət katibi ilə görüşəcək

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ABŞ dövlət katibi Mayk Pompeo ilə görüşəcək. SİA-nın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, görüşün iyunun 4-də Vaşinqtonda keçirilməsi nəzərdə tutulub. Xatırladaq ki, ABŞ-ın Qüdsdə səfirlik açmasından sonra iki ölkə arasında münasibətlər gərgin xarakter alıb.



# Nazirlər Kabinetində dərman vasitələrinə nəzarətin gücləndirilməsi ilə bağlı iclas keçirilib



Mayın 16-da Nazirlər Kabinetində dərman vasitələrinin qeyri-qanuni dövriyyəsinə, keyfiyyətinə və təyinatı üzrə istifadəsinə nəzarət məsələləri ilə bağlı iclas keçirilib. AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini Əli Əhmədovun sədrlik etdiyi iclasda müvafiq dövlət qurumlarının rəhbərləri və nümayəndələri dərmanların idxalı və keyfiyyətinə dair müzakirələr aparıblar.

İclasda çıxış edən Baş nazirin müavini Əli Əhmədov dərman vasitələrinin dövlət tərəfindən qiymətlərinin tənzimlənməsi haqqında Azərbaycan hökumətinin qərarının olduğunu və bunun vətəndaşların sağlamlığına xidmət etdiyini bildirib. Qeyd edib ki, ölkəmizdə dərman vasitələri dövlət tərəfindən tənzimlənən qiymətlərlə satılır və Azərbaycan vətəndaşları bunu yüksək qiymətləndirir. Bunun nəticəsidir ki, bir neçə gün əvvəl saxta dərman satışı ilə məşğul olan bir qrup şəxs ifşa edilib.

Əhalinin sağlamlığının qorunması istiqamətində görülən işlərdən danışan Əli Əhmədov deyib ki, Prezident İlham Əliyevin səhiyyəyə göstərdiyi xüsusi diqqət bu sahədə xeyli irəliləyişə səbəb olub. Dövlətimizin başçısının müəyyən etdiyi proqramlar tibb müəssisələrinin təmir və bərpasını, onların ən müasir avadanlıqla təchiz olunmasını, eləcə də vətəndaşlara pulsuz dərman vasitələrinin və preparatların verilməsini təmin edib. Artıq ölkəmizdə orta ömür müddəti uzanıb, yaşlı insanların sayı çoxalıb. Buna baxmayaraq, dərman bazarlarına keyfiyyətsiz məhsulların daxil olması barədə məlumatların olduğunu deyən Baş nazirin müavini vurğulayıb ki, Azərbaycanda saxta dərman satışına qarşı mübarizə qətiyyətlə davam edəcək.

Əli Əhmədov bildirib ki, dünyada saxta dərman problemi geniş yayılıb və buna qarşı mübarizə aparılır. Eyni zamanda, Azərbaycanda da saxta dərman satışına qarşı ciddi mübarizə tədbirləri görülür. Baş nazirin müavini dərman istehsalı və satışı ilə məşğul olan müəssisələrin fəaliyyəti üçün Azərbaycan hökuməti tərəfindən yaradılan şəraitdən danışıb və bundan sonra da onlara hər zaman kömək olunacağını diqqətə çatdırıb. Tədbirdə ölkəmizin dərman bazarında keyfiyyətsiz və qeydiyyatdan keçməyən preparatların mövcud olduğu bildirilib və bu cür mənfi hallara qarşı ciddi mübarizə tədbirləri görməyin vacibliyi vurğulanıb.

Sonda aparılan müzakirələrin nəticəsi olaraq dərman bazarında mənfi hallara qarşı ciddi mübarizə tədbirlərinin görülməsi ilə bağlı təkliflərin hazırlanması üçün işçi qrupun yaradılması qərara alınıb.

# Azərbaycan əhalisinin sayı açıqlanıb

İlin əvvəlindən ölkə əhalisinin sayı 18 min 260 nəfər artaraq 2018-ci il aprel ayının 1-i vəziyyətinə 9 milyon 916 min 345 nəfərə çatıb.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, əhalinin bir kvadrat kilometrə düşən sayı 115 nəfər olub. Əhalinin 52,9 faizi şəhər yerlərində, 47,1 faizi kənd yerlərində məskunlaşmış, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir.

Cari ilin yanvar-mart ayları ərzində Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 32 min 954 doğulan körpə qeydə alınıb və bu göstərici əhalinin hər 1000 nəfərinə 13,6 təşkil edib. Doğulan körpələrin 610-u əkiz, 30-u üçəmdir. Yeni doğulan körpələr arasında qızların xüsusi çəkisi 47,1 faiz təşkil edərək hazırda hər 100 doğulan qıza 114 oğlan düşür (bioloji norma 105-107 təşkil edir). Doğulanların cins nisbətinin pozulması ümumi əhalinin cins strukturunu da dəyişir. Hazırda hər 1000 kişiyə 1005 qadın düşür.

Birinci rübdə ölkədə 15 min 403 ölüm halı qeydə alınıb və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 6,6-dan 6,4-ə qədər azalıb. İlin ilk üç ayı ərzində qeydiyyat şöbələri tərəfindən 12 min 932 nikah və 3 min 556 boşanma halları qeydə alınıb, əhalinin hər 1000 nəfərinə nikahların sayı 5,4, boşanmaların sayı isə 1,5 olub.

Yanvar-mart ayları ərzində Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün 1010 nəfər Azərbaycana gələn, 301 nəfər isə Azərbaycandan gedən qeydə alınaraq, miqrasiya saldosu müsbət 709 nəfər təşkil edib.

# Azərbaycan və Türkiyə parlamentlərinin sədrləri "Şərəf" medalı ilə təltif olunublar



Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov və Türkiyə Böyük Millət Məclisinin sədri İsmayıl Qəhrəman Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin 25 illik yubileyi münasibətilə təsis olunan "Şərəf" medalı ilə təltif olunublar. AZƏRTAC xəbər verir ki, medal iki qardaş ölkənin parlament sədrlərinə QDİƏT Parlament Məclisinin 25-ci ildönümünə həsr olunmuş Spikerlərin Sammiti çərçivəsində təqdim olunub.

# Los-Ancelesdə Azərbaycan tolerantlığına həsr olunmuş tədbir keçirilib



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlının rəhbərlik etdiyi, Azərbaycanda yaşayan müxtəlif dini icmaların başçılarından ibarət nümayəndə heyətinin ABŞ-ın Kaliforniya ştatına səfəri çərçivəsində ABŞ yəhudilərinin ən nüfuzlu dini mərkəzlərindən olan, Los- Ancelesdə fəaliyyət göstərən Sinay Sinaqoqunda Azərbaycanın multikulturalizm və dini tolerantlıq ənənələrinə həsr olunmuş geniş tədbir keçirilib. Bu barədə Azərbaycanın Los-Ancelesdəki baş konsulluğundan məlumat verilib.

Baş konsulluğun və Amerika Yəhudi Komitəsinin birgə təşkilatçılığı ilə keçirilmiş tədbirdə 300-dək qonaq, o cümlədən xarici ölkələrin Los- Ancelesdə akkreditə olunmuş baş konsulları, yerli yəhudi icmasının nüfuzlu təmsilçiləri, müxtəlif dinləri təmsil edən din xadimləri, seçkili orqanların üzvləri, eləcə də bir çox icmaların nümayəndələri, ictimai-siyasi xadimlər və jurnalistlər iştirak ediblər.

Tədbirin açılışında Sinay Sinaqoqunun kantoru Liza Peykot tərəfindən Azərbaycan himninin ifası rəğbətlə qarşılanıb. Sinaqoqun ravvini Erez Şerman belə bir əlamətdar tədbirə ev sahibliyi etməkdən məmnunluq duyduqlarını ifadə edib. O, 2015-ci ildə sinaqoqun böyük nümayəndə heyətinin Azərbaycana səfərini qeyd edərək, Azərbaycandakı dinlərarası tolerantlığın bütün qonaqlara yüksək təsir bağışladığını vurğulayıb.

Sonra çıxış edən Amerika Yəhudi Komitəsinin (AYK) Los-Anceles nümayəndəliyinin sədri Skot Edelman Azərbaycanın bütün müsəlman dünyasında oynadığı nümunəvi rolu xüsusi vurğulayaraq, AYK ilə Azərbaycan arasında qurulmuş sıx dostluq əlaqələrinə yüksək önəm verdiklərini bildirib. S.Edelman ölkəmizdə müxtəlif dinlərin və xalqların dinc birgəyaşayışının, eləcə də uzun əsrlərdən bəri Azərbaycanda mövcud olan yəhudi icmasına göstərilən münasibətin yüksək səviyyədə olmasının Amerika yəhudiləri arasında böyük rəğbət doğurduğunu vurğulayıb. Natiq Azərbaycanın tolerantlıq modelinin bu gün Los-Ancelesdə Sinay Sinaqoqu və Azərbaycanın baş konsulluğu ilə birgə təqdim olunması kimi gözəl bir layihədəki rolundan AYK-nin şərəf duyduğunu bildirib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı tədbirdə çıxış edərək tolerantlığın ölkəmizdə çox möhkəm təməl sütunlarının, zəngin ənənələrinin mövcud olduğunu qeyd edib. 31-i qeyri-islam olmaqla, 809 dini icmanın dövlət qeydiyyatına alındığını vurğulayan M.Qurbanlı ölkəmizdə İslam dini ilə yanaşı, digər dinlərə mənsub insanların qarşılıqlı anlaşma, mehriban qonşuluq və əmin-amanlıq şəraitində yaşadıqlarını diqqətə çatdırıb. O bildirib ki, məhz bu ənənələrin daha geniş təbliği üçün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2016-cı il ölkəmizdə "Multikulturalizm İli", 2017-ci il isə "İslam Həmrəyliyi İli" elan edilib və bu illər çərçivəsində DQİDK və Qafqaz Müsəlmanları İdarəsi həm müsəlman, həm də qeyri-müsəlman ölkələrində bir sıra birgə tədbirlər həyata keçirib. DQİDK sədri xüsusilə bu istiqamətdə Heydər Əliyev Fondunun həyata keçirdiyi çoxşaxəli və geniş proqramlardan söz açıb. Qeyd edib ki, bu proses bu il də davam edilir. Belə ki, xüsusi olaraq Dinlər və Mədəniyyətlərarası Əməkdaşlıq Mərkəzi yaradılıb və bu Mərkəz vasitəsilə qarşıdakı müddətdə Almaniya, İspaniya və Azərbaycanda müvafiq tədbirlər keçiriləcək.

Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev çıxışında ölkəmizdə mövcud olan zəngin tolerantlıq irsindən bəhs edərək, qədim dövrlərdən bəri Azərbaycanda bütün xalqlar və dinlər arasında mehriban qardaşlıq əlaqələrinin hökm sürdüyünü qeyd edib. Diplomat Sinay Sinaqoqu və Amerika Yəhudi Komitəsi ilə Los-Ancelesdə yaradılmış möhkəm dostluq münasibətlərinin ölkəmiz üçün yüksək önəm daşıdığını və bunun Azərbaycanın dinlərarası tolerantlıq modelinin ABŞ-da təbliği işinə yüksək töhfə verdiyini bildirib.

Sonra çıxış edən Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev, Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev, Avropa Yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili və Rus Pravoslav Kilsəsinin Bakı Yeparxiyasının nümayəndəsi Elnur Əfəndiyev Azərbaycanın tarixi tolerantlıq və multikulturalizm ənənələrindən danışaraq, bu ənənələrin artıq ölkəmizdə dövlət siyasəti səviyyəsinə yüksəldildiyini vurğulayıblar. Natiqlər Azərbaycanda uzun əsrlərdən bəri dini və etnik mənsubiyyətindən asılı olmayaraq hər kəsin sülh, qardaşlıq və əmin-amanlıq şəraitində birgə yaşadığını diqqətə çatdırıblar.

Sonra tədbir iştirakçıları və media nümayəndələrini maraqlandıran suallar cavablandırılıb. Müxtəlif media qurumlarını təmsil edən jurnalistlər Azərbaycan tolerantlığı barədə geniş bilgilər əldə ediblər.

Çıxışlardan sonra Azərbaycanın multikulturalizm ənənələrindən bəhs edən, DQİDK tərəfindən çəkilmiş qısa film nümayiş etdirilib. Los-Ancelesdə fəaliyyət göstərən pianoçu Ceyson Abramsın ifasında Azərbaycan musiqisi təqdim olunub. Sonda tədbir iştirakçıları Azərbaycanın multikulturalizm və tolerantlıq ənənələrinə həsr olunmuş fotosərgi ilə tanış olublar.

## Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi qarşısında

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ - DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİNİN DAVAMI KİMİ

*Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin, məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində -XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır.*

**Heydər Əliyev**

*(Əvvəli ötən sayımızda)*

Azərbaycan Xalq Cümhuriyyəti çox çətin ictimai-siyasi vəziyyətdə ilk addımlarını atmaqla yanaşı, ona yardımla bağlı edilən müraciəti də cavabsız qoymamışdı. Belə ki, Cənubi-Qərbi Qafqaz Hökuməti 25 yanvar 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinə müraciət edərək, ondan hərbi və maddi yardım istəmişdi. Cənubi-Qərbi Qafqaz Hökumətini rəsmən tanıyan Azərbaycan Hökuməti özünün ağır durumda olmasına baxmayaraq, hərbi təlim keçmək üçün Gürcüstan yolu ilə zabitlər və silah almaq üçün xeyli qızıl pul göndərmişdi. Baş nazir Fətəli xan Xoyski Cənubi-Qərbi Qafqaz Hökumətinə qarşı düşmənçiliyi Azərbaycan Hökumətinə qarşı düşmənçilik hesab etdiyini bildirmişdi. Azərbaycan hökuməti 1919-cu ilin fevralında Cənubi Qafqaz respublikalarının iştirakı ilə Tiflisdə keçirilən Sülh Konfransına Cənubi-Qərbi Qafqaz Hökumətinin nümayəndələrinin də qatılmasını təklif etmişdi. Lakin Ermənistan və Gürcüstan nümayəndələri etiraz etdikləri üçün Cənubi-Qərbi Qafqaz Hökuməti nümayəndələrinin həmin konfransda iştirakı baş tutmamışdı [Gökdemir Ahmet Ender. Cenüb-i Garbi Kafkas Hükümeti, s. 87]. 1919-cu il martın 25-də Cənubi-Qərbi Qafqaz Hökuməti müstəqilliyini elan etdi və özünü Cənubi-Qərbi Qafqaz Cümhuriyyəti adlandırdı. Lakin aprelin 12-də Qarsda ingilis komandanlığı Cənubi-Qərbi Qafqaz Cümhuriyyətinin Parlament və Hökumət üzvlərini həbs etdirir və bununla bu Cümhuriyyət süquta uğrayır. Azərbaycan Xalq Xümhuriyyəti Hökuməti ingilislərin Cənubi-Qərbi Qafqaz Cümhuriyyətini süquta yetirməsini kəskin şəkildə pisləmişdi.

1918-ci ilin noyabrında Naxçıvanda Araz-Türk Respublikası müvəqqəti müstəqilliyini elan etdi. Bu respublika bir tərəfdən, erməni iddialarını dəf etməyə, digər tərəfdən isə, respublikanın bütün əhalisinin həm din, həm də dil cəhətdən can atdığı Azərbaycanla birləşməni hazırlamağa cəhd edirdi. Araz-Türk Respublikasının əhalisi 1 milyon nəfər, ərazisi 8,7 min kv.km olmaqla [Naxçıvan Muxtar Respublikası. Bakı: Elm, 2001, 220 s., s. 33] tərkibinə Naxçıvan və Şərur-Dərələyəz qəzaları, Sərdarabad, Uluxanlı, Vedibasar, Kəmərli, Mehri və s. bölgələr daxil idi. Respublikanın paytaxtı Naxçıvan şəhəri, hökumətin sədri isə Əmir bəy Nərimanbəyov olmuşdur [Azərbaycan Respublikasının Dövlət Arxivi, f. 894, siy. 10, iş 178, v. 7]. Araz-Türk Respublikasının silahlı qüvvələrinin köməyi ilə və yerli əhalinin fəal müqaviməti nəticəsində Ermənistanın daşnak hökumətinin Naxçıvanı ilhaq etmək siyasətinin qarşısı alındı. Araz-Türk Respublikasının yaradılması ilə türklərin Naxçıvan diyarı ilə əlaqələri tamam kəsilmirdi. Türk Ordusunun polkovniki Xəlil bəy Araz-Türk Respublikasında səlahiyyətli nümayəndəliyin başçısı təyin olunmuşdu. Bundan başqa, türklərin Naxçıvanda 5 zabit və 300 əsgəri qalırdı. Araz-Türk Respublikası qısa müddət fəaliyyət göstərməsinə (1918 noyabr - 1919 mart) baxmayaraq, “bölgənin azərbaycanlı əhalisinin qüvvələrinin düşmənlərə qarşı mübarizə üçün birləşdirilməsini, bölgənin ermənilərə keçməsinə imkan verməməklə onun toxunulmazlığını və bununla da, AXC-nin ərazi bütövlüyünü təmin etdi” [Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətində Naxçıvan/ http://ame-anb.nakhchivan.az/wp-content/uploads/2017/11/AXC_meqale.pdf].

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti ilk günlərdən başlayaraq, bütün ölkələrlə dostluq və əməkdaşlığı özünün xarici siyasətinin başlıca məqsədi elan etmişdi. Hökumət hələ qalib ölkələr tərəfindən rəsmən tanınana qədər müstəqil dövlət kimi öz suveren hüquqlarını həyata keçirməyə başlamışdı. Azərbaycan Xalq Cümhuriyyətinin İstanbul, Tehran, Tiflis, İrəvan, Kuban və Donda diplomatik nümayəndəlikləri, Batum və Ukraynada baş konsulluqları, Krım və Petrovsk-Portda konsul agentləri, Bakıda isə Gürcüstan və Ermənistan cümhuriyyətlərinin diplomatik nümayəndəlikləri, İranın baş konsulu, Belçika, Hollandiya, Yunanıstan, İsveç və İsveçrənin konsulları, İngiltərə, ABŞ və Ukraynanın vitsekonsulları, Litva, Polşa və Finlandiyanın konsul agentləri fəaliyyət göstərirdi. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti və onun Xarici İşlər Nazirliyi bütün mövcudluğu dövründə Birinci Dünya müharibəsinin qalib ölkələri olan İngiltərə, ABŞ və Fransadan öz suverenliyinin tanınmasını təkidlə tələb edirdi. 1919-cu ilin yanvarında Əlimərdan bəy Topçubaşovun başçılığı ilə Paris Sülh Konfransına göndərilmiş Azərbaycan nümayəndə heyəti bu yöndə yorulmadan çalışırdı. Nümayəndə heyətinin nə qədər gərgin fəaliyyət göstərdiyini Ə.Topçubaşovun Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti sədrinə ünvanladığı məktublar aydın sübut edir. Antanta dövlətləri Azərbaycan Xalq Cümhuriyyətinin varlığını yalnız Denikin orduları Sovet Rusiyası tərəfindən məğlub edildikdən, keçmiş Rusiyanı bərpa etmək ümidləri boşa çıxdıqdan sonra de-fakto tanıdılar [Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, 2 cilddə. Bakı: Lider, 2004-2005].

Həmin dövrün mürəkkəb beynəlxalq siyasi şəraiti, müstəqil dövlətimizə qarşı xarici təzyiqlərin artması nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süqut etsə də, xalqın təfəkküründə azadlıq, demokratiya və müstəqil dövlətçilik ideyaları dərin kök saldı. AXC-nin süqutunu tezləşdirən mühüm səbəblərdən biri də o zaman ölkədə daxili sabitliyin, xüsusən də, milli birliyin olmaması, siyasi partiya və fraksiyaların bir-birinə qarşı barışmaz mübarizəsi, dövlətçiliyin möhkəmləndirilməsi üçün zəruri olan tədbirlərin addım-addım həyata keçirilməsi əvəzinə, hər 5-6 aydan bir yeni hökumətin təşkil edilməsi idi. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə xalqın birlik, bütövlük və müstəqillik arzularına müvəqqəti son qoyuldu. Yüz minlərlə soydaşımız repressiya və təqiblərə məruz qaldı, bir qismi isə siyasi mühacirət edib bütün dünyaya səpələndi. Müharibələrdə və repressiya illərində minlərlə övladını itirən Vətənimizin elmi-mədəni inkişafına, ictimai-siyasi irəliləyişlərinə vurulan zərbələr xalqımızın güclü və dövlətimizin qüdrətli olmasına ciddi maneçiliklər törətmişdir. Lakin XX yüzilliyin sonunda Azərbaycan ikinci dəfə müstəqillik qazandı. 1991-ci il 18 oktyabr tarixli Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı bəyan etdi ki, Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Respublikasının varisidir. Aktda göstərilir ki, 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası İstiqlal Bəyannaməsi qəbul edərək, Azərbaycan xalqının dövlət quruluşunun çoxəsrlik ənənələrini dirçəltdi. Azərbaycan Respublikasının müstəqil dövlətə xas olan təsisatları - parlamenti, hökuməti, ordusu, maliyyə sistemi yaradılmışdı və fəaliyyət göstərirdi. Azərbaycan Respublikası bir çox xarici dövlətlər tərəfindən tanınmış və onlarla diplomatik münasibətlər yaratmışdı. Lakin 1920-ci il aprelin 27-28-də RSFSR beynəlxalq hüquq normalarını kobudcasına pozaraq, müharibə elan etmədən öz silahlı qüvvələrinin hissələrini Azərbaycana yeritdi, suveren Azərbaycan Respublikasının ərazisini işğal etdi, qanuni seçilmiş hakimiyyət orqanlarını zorakılıqla devirdi və Azərbaycan xalqının çox böyük qurbanlar bahasına qazandığı müstəqilliyə son qoydu. Aktın 1-ci maddəsində göstərilir ki, “1920-ci il aprelin 27-28-də RSFSR-in XI ordusunun Azərbaycana təcavüzü, respublika ərazisinin zəbt etməsi, beynəlxalq hüququn subyekti olan Azərbaycan Demokratik Respublikasını devirməsi Rusiyanın müstəqil Azərbaycanı işğal etməsi hesab edilsin” [Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktı.https:// az.wikipedia.org/wiki/Azərbaycan_Respublikasının_Dövlət_Müstəqilliyi_-haqqında_Konstitusiya_Aktı].

Hesab edirik ki, Heydər Əliyev tərəfindən vaxtilə xalq düşməni adı ilə unudulmuş şəxslərin adlarının tarixə qaytarılması və bərpa edilməsi elmdə böyük tarixi xidmətdir. Azərbaycan Xalq Cümhuriyyəti uzun illər tarixin unudulmuş səhifəsi idi. Azərbaycanın müstəqilliyinin bərpa edilməsindən sonra Xalq Cümhuriyyəti tarixinin həqiqətlərinin üzə çıxarılmasında, onun Azərbaycan tarixində yerinin və əhəmiyyətinin göstərilməsində Heydər Əliyevin nəinki siyasi xadim kimi, eyni zamanda, böyük tarixçi kimi yüksək xidməti vardır. Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi haqqında Prezidentin 1998-ci il 30 yanvar tarixli Sərəncamı böyük tarixi hadisə oldu. Sərəncamda deyilir: “Azərbaycan Xalq Cümhuriyyəti ölkənin daxilində və xaricində yaranmış gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmişdir. Bu dövlətin qısa bir müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində böyük iz buraxmışdır. Milliyyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq, bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, dövlət sərhədlərinin müəyyən olunması, Azərbaycan dövlətçiliyi atributlarının qəbul edilməsi, ana dilinin dövlət dili elan olunması Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratmışdır. Demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq sahələrində atılmış addımlar Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyətini əks etdirən əsas istiqamətlərdir. 1918-ci ildə Azərbaycanda yaranmış respublika quruluşu yaşamış, müstəqillik hissləri xalqımızı heç vaxt tərk etməmişdir”. Prezident Sərəncamının yerinə yetirilməsinin nəticəsi olaraq, Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə dair sənədlər və materiallar külliyyatı 7 cilddə hazırlanıb, 1998-ci ildə nəşr edildi. Cümhuriyyət tarixinə dair elmi-tədqiqat işləri aparılmağa başlandı. Ulu Öndər Heydər Əliyevin göstərişi ilə AMEA-nın Tarix İnstitutu tərəfindən 7 cildlik “Azərbaycan tarixi”nin akademik nəşri işıq üzü gördü [Hüseynova İradə. Heydər Əliyev - Müstəqil Azərbaycanda milli-mənəvi dirçəliş. “Dirçəliş-XXI əsr” jurnalı, № 74-75, 2004, səh. 177-199].

Ümummilli Liderimizin müdrik siyasətini uğurla davam etdirən Cənab İlham Əliyev xalqımızın şanlı tarixinə də lazım olduğu dəyəri verməkdədir. “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında” Azərbaycan Respublikası Prezidentinin 16 may 2017-ci il tarixli Sərəncamında göstərilir ki, “Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini və sinfi bərabərsizliyi ortadan qaldırdı. Cümhuriyyət Parlamentinin il yarımlıq fəaliyyəti boyunca qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan verdi. Azərbaycan Xalq Cümhuriyyəti daim sülhsevər siyasət apararaq, bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmağa və bir-birinin hüquqlarına hörmət prinsipləri əsasında münasibətlər qurmağa cəhd göstərirdi. Dünya birliyi tərəfindən tanınmış Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı” [“Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. “Azərbaycan” qəzeti, Bakı, 2017, 17 may].

Prezident İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlətimizin başçısı Cənab İlham Əliyev yekun nitqində bildirmişdir: “Yüz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və iki il ərzində fəaliyyəti tarixi hadisə idi. Azərbaycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl, ən ülvi demokratik dəyərləri, nəinki bəyan edib, habelə, öz praktiki fəaliyyətində onları təmin edib. Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrinə sadiqik və bu ənənələri yaşadırıq” [Prezident İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. “Xalq qəzeti”, 2018, 11 yanvar]. Dövlətimizin başçısı Cənab İlham Əliyev 2018-ci ili ölkəmizdə “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan etmişdir. Bu bəyanat da sübut edir ki, ölkəmizdə dövlət səviyyəsində dövlətçilik ənənələrinə, dövlətçilik tarixinə böyük önəm verilir, 1918-1920-ci illərin cümhuriyyət tarixinin şanlı səhifələrindən biri hesab edilir. Prezident İlham Əliyev tərəfindən 2018-ci ilin “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan olunması onun milli-mənəvi dəyərlərimizə, tariximizə, keçmişimizə və bu günümüzə verdiyi yüksək dəyərin bariz nümunəsidir. Əsrin əvvəllərində, 1918-1920-ci illərdə qurulmuş və cəmi 23 ay fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyətindən fərqli olaraq, əsrin sonlarında, 1991-ci ildə müstəqil dövlət kimi tarix səhnəsinə qədəm qoyan Azərbaycan Respublikası artıq öz tarixinin üçüncü onilliyinə qədəm qoyub. Ölkəmizdə milli dövlətçilik günbəgün inkişaf edir və möhkəmlənir. Biz belə bir dövlətin vətəndaşları olduğumuzdan qürur duyuruq.

***İradə Hüseynova,***
***Tarix elmləri doktoru,***
***professor, YAP Siyasi***
***Şurasının üzvü***

# Azərbaycanda informasiya cəmiyyəti quruculuğu sürətlə irəliləməkdədir

*Bu gün - 17 May Ümumdünya İnformasiya Cəmiyyəti Günü kimi qeyd olunur*



***İnformasiya-kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi zərurəti indiki qloballaşma dövründə daha çox hiss olunur. Bu texnologiyaların sürətlə inkişafı və yayılması bəşəriyyətin inkişafı üçün geniş imkanlar yaradır. Bəşəriyyətin yeni inkişaf dövrünə qədəm qoyması yeni cəmiyyətin formalaşmasını da labüd edir. Dünya ölkələrində olduğu kimi, Azərbaycanda da bu gün 17 May Ümumdünya İnformasiya Cəmiyyəti Günü kimi qeyd olunur. Qloballaşan dünyada informasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi və yayılması böyük zərurətə çevrilir. Bu, bəşəriyyətin inkişafı üçün geniş imkanlar deməkdir. Bu gün beynəlxalq aləm - 17 may tarixini Beynəlxalq Telekommunikasiya və Rabitə, həmçinin, Ümumdünya İnformasiya Həmrəyliyi Gününün elan olunması kimi qeyd edir.***

Beynəlxalq Telekommunikasiya və Rabitə Günü Beynəlxalq Elektroəlaqə İttifaqı İdarəedici Sovetinin 1969-cu il qərarı ilə təsis olunub. Ümumdünya İnformasiya Cəmiyyəti Günü isə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 27 mart 2006-cı il tarixdə elan edilib. Bu tarixin seçilməsi də təsadüfi deyil. 1865-ci ilin həmin günündə Parisdə 20 Avropa ölkəsinin nümayəndələri Beynəlxalq Teleqraf İttifaqının yaradılması haqqında müqavilə imzalayıblar.

Əksər ölkələrdə olduğu kimi, Azərbaycanda da informasiya cəmiyyətinin formalaşması strateji məsələ kimi qarşıya qoyulmuş və müasir cəmiyyətə inteqrasiya səviyyəsi dövlətin iqtisadi inkişaf dərəcəsini əks etdirən amilə çevrilmişdir. Azərbaycanda bu sahənin əsasını Ulu Öndər Heydər Əliyev hələ ötən əsrin 70-ci illərində qoyub. Ümummilli Lider Heydər Əliyevin 2003-cü ildə imzaladığı "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya" 10 il ərzində görüləcək işlərin ümumi xəttini müəyyənləşdirdi. Heydər Əliyev siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti Cənab İlham Əliyev 2004-cü ildə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin yaradılması haqqında Sərəncam imzaladı. Daha sonra 21 oktyabr 2005-ci il tarixli "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı"nı imzaladı. Buna uyğun olaraq, ölkəmizdə informasiya cəmiyyətinin qurulması istiqamətində ardıcıl tədbirlər həyata keçirildi.

"Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı" çərçivəsində həyata keçirmiş tədbirlər və ardıcıl aparılan dövlət siyasəti nəticəsində son illər İKT və poçt sektoru sürətlə inkişaf etmişdir. Respublikanın şəhər və rayonlarının telefon şəbəkələri yenidən qurularaq, tam elektronlaşdırılmışdır. MDB-yə üzv dövlətlər arasında, ilk dəfə olaraq, Azərbaycanda "Yeni Nəsil Şəbəkələr" (NGN) texnologiyalarının tətbiqinə başlanılmışdır. Ucqar ərazilərdə yerləşən və coğrafi cəhətdən fiziki xətlə telefonlaşdırılması mümkün olmayan yaşayış məntəqələrində telefon rabitəsi peyk avadanlığının quraşdırılması vasitəsilə təmin edilmişdir.

Dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində əhəmiyyətli işlər görülüb və müvafiq hüquqi baza formalaşdırılıb. Azərbaycan Prezidenti İlham Əliyevin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Fərmanı ölkəmizdə, nəinki elektron hökumətin inkişafı, həm də korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsində mühüm rol oynadı. Bu xidmətlər bürokratik əngəlləri və mümkün korrupsiya hallarını aradan qaldırır. Beləliklə, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan "ASAN Xidmət" mərkəzləri yaradıldı. Bu qurumun yaradılmasında məqsəd vətəndaşlara birbaşa xidmət göstərəcək "ASAN Xidmət" mərkəzlərinin vahid şəkildə idarə edilməsi idi. 2012-ci ildən başlayaraq Bakının bir neçə rayonunda "ASAN Xidmət" mərkəzləri sakinlərin istifadəsinə verildi. Daha sonra bu proses regionları da əhatə etməyə başladı. Əgər əvvəllər "ASAN Xidmət" mərkəzlərində 23 hüquqi xidmət həyata keçirilirdisə, indi 10 dövlət orqanı tərəfindən 32 növ xidmət göstərilir. Eyni zamanda, özəl şirkət və müəssisələr tərəfindən, ümumilikdə, vətəndaşlara 250-yə yaxın müxtəlif xidmətlər göstərilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi beynəlxalq əlaqələrə də üstünlük verir. Bu gün "ASAN Xidmət"in fəaliyyəti Avropa İttifaqı, Avropa Parlamenti, Böyük Britaniya Parlamenti, Fransa, Almaniya və digər ölkələrdə yüksək qiymətləndirilir. Özünəməxsus hüquqi strukturu olan bu model bir çox beynəlxalq əməkdaşlar və ekspertlər tərəfindən təqdirəlayiq hesab olunur. Artıq Azərbaycanın "ASAN Xidmət" modeli əsasında Əfqanıstanda dövlət xidmətlərinin göstərilməsi sahəsində eyniadlı qurum "Asan Khedmat" təsis edilib. Bundan başqa, İtaliya, Koreya Respublikası, Fransa, İndoneziya, Monteneqro və ISESCO təşkilatı ilə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

"Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 2 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş və strategiyada bu sahənin inkişafı üzrə 2020-ci ilə kimi konkret məqsəd və vəzifələr müəyyən edilmişdir. Bu strategiya informasiya cəmiyyətinin əsaslarının yaradılması, vətəndaşlar, cəmiyyət, özəl sektor və dövlət orqanları tərəfindən İKT-dən geniş istifadə növbəti mərhələdə fəaliyyət istiqamətlərinin planlaşdırılması üçün əlverişli şərait yaradır. Strategiya İKT sahəsinin qarşısında qoyulan vəzifələrin yerinə yetirilməsi üzrə dövlətin siyasətini əks etdirir, əsas məqsəd və vəzifələri, prioritetləri və fəaliyyətin əsas istiqamətlərini müəyyənləşdirir. Cəmiyyətin informasiyalaşdırılması ölkə iqtisadiyyatının bütün sahələrində səmərəliliyin artırılmasına, dövlət orqanlarında elektron sənəd mübadiləsinin, elektron ticarət sistemlərinin tətbiqinə, məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsinə köməklik göstərir. Bütün bunlar, onu deməyə əsas verir ki, Azərbaycanda informasiya cəmiyyəti quruculuğu sürətlə irəliləməkdədir. Azərbaycanda İKT-nin inkişafı üzrə görülmüş işlər beynəlxalq təşkilatların hesabatlarında da öz əksini tapmaqdadır.

Ümumiyyətlə, informasiya cəmiyyətinin formalaşması prosesi mürəkkəb və çoxşaxəlidir. İndi bu sahədə ölkəmizdə uğurlu işlər görülməkdədir. Bu gün ölkəmizdə də təhlükəsizlik məsələləri və eləcə də, internetin və informasiya cəmiyyətinin inkişafı diqqət mərkəzindədir. Belə ki, Azərbaycanda informasiya cəmiyyətinin qurulması dövlət siyasətinin əsas prioritetlərindən biri kimi qəbul edilib.

***Zümrüd BAYRAMOVA***

## Kopenhagendə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi qeyd olunub

Kopenhagendə Skandinaviya Türk Federasiyasının təşkilatçılığı, Danimarka Vətən Cəmiyyətinin və Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi qeyd edilib. AZƏRTAC xəbər verir ki, "Dünya Türk Günü" adlı tədbirdə Türkiyənin Danimarkadakı səfiri Uğur Kənan İpək, Avropa Türk Federasiyasının sədri Camal Çetin, Danimarka, Almaniya, İsveç və Norveçdə fəaliyyət göstərən cəmiyyət rəhbərləri, yerli və türk iş adamları, media nümayəndələri, türkmən, uyğur və bir çox digər icmaların təmsilçiləri iştirak ediblər.

Gecədə çıxış edən Danimarka Vətən Cəmiyyətinin sədri Səfər Sadiqi tarixə nəzər salaraq, müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, fəaliyyəti və süqutu haqqında qonaqlara məlumat verib. O, eyni zamanda, Azərbaycanın və Türkiyənin bir millət, iki dövlət olduğunu xatırladaraq azərbaycanlıların hər zaman türklər və türkdilli xalqların yanında olduğunu vurğulayıb.

## Ukraynada Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı poçt markası dövriyyəyə buraxılıb

Ukraynada Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı poçt markası hazırlanıb. Bu barədə AZƏRTAC-a Azərbaycanın Ukraynadakı səfirliyinin müşaviri Vüsal Süleymanov məlumat verib. Səfirlik tərəfindən hazırlanan 4 növ poçt markasında Azərbaycan Xalq Cümhuriyyətinin parlament binasının, iclasının, Şərqdə ilk dəfə qadınlara səsvermə hüququ verilən obrazın təsvirləri yer alıb. Poçt markalarında Azərbaycan Xalq Cümhuriyyəti dövrünün mövzusu geniş qeyd edilib. Sayı 2000 ədəd olan poçt markaları artıq bu gündən dövriyyəyə buraxılıb.



## Məsud Kərbasian: "İran Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini dəstəkləyir və hörmətlə yanaşır"

İran Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir və hörmətlə yanaşır. Bu sözləri İranın iqtisadiyyat naziri Məsud Kərbasian deyib.



Nazir bildirib ki, Azərbaycan və İran prezidentlərinin səyləri nəticəsində iki ölkə arasındakı əlaqələr yüksələn xətlə inkişaf edir. Qarşılıqlı münasibətlərin dostluq və qardaşlıq əsasında qurulması xalqlarımızın mənafeyinə uyğundur. Dövlətlərimizin başçıları da məhz xalqlarımızın maraqlarını təmin etmək istiqamətində siyasət yürüdürlər. İran rəsmisi dövlət başçılarının qarşılıqlı rəsmi səfərlərini xatırladaraq, bu səfərlərin ikitərəfli münasibətlərin inkişafına yeni töhfələr verəcəyinə əmin olduğunu deyib.

İki ölkə arşındakı müştərək iqtisadi komissiyanın uğurlu fəaliyyətindən danışan nazir qeyd edib ki, nəqliyyat sahəsindəki əməkdaşlıq təkcə İran ilə Azərbaycanın deyil, eləcə də Asiya və Avropa ölkələrinin iqtisadi inkişafına təkan verəcək. İki ölkənin nəqliyyat sahəsində əməkdaşlığı nəticəsində formalaşan Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin əsasını təşkil edən Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xəttinin inşası davam edir. Beynəlxalq əhəmiyyət daşıyan bu iqtisadi layihə məhz İran və Azərbaycan prezidentlərinin səyləri ilə həyata keçirilir. Azərbaycan İranın yaxın qonşusu və dostudur. Əlaqələrimiz qarşılıqlı etimada əsaslanaraq inkişaf edir. Azərbaycanın iqtisadi inkişaf bizi sevindirir.

# Müxalifətin "söyüş qrupu" sıradan çıxarılacaq

## Teyyub Qənioğlu: "Bunları maliyyələşdirərək hürdürənlərin özləri də bunu xoşlamırlar"

*- Teyyub bəy, müxalif şəxslər, xüsusilə də, xaricdə mühacir həyatı yaşayan bəzi azərbaycanlılar sosial şəbəkələr vasitəsi ilə dövlətimiz əleyhinə qərəzli şər və böhtanlarını daha geniş şəkildə yaymağa cəhd edirlər. Bu şəxslərin Azərbaycana qarşı üzüdönüklüyü nədən qaynaqlanır?*



Müsahibimiz Təkamül partiyasının sədri Teyyub Qənioğludur

- Xaricdə olan həmin şəxslərin sosial şəbəkələrdə yazdıqlarına rast gəlirəm və bu, heç də yaxşı bir hal deyil. Ümumiyyətlə, siyasi mübarizədə şər, böhtan və insan şəxsiyyətinə toxunan ifadələri işlədənlər başa düşməlidirlər ki, bu hərəkətlərə əl atmaqla, onlar heç vaxt uğur əldə edə bilməyəcəklər. Bu cür pozucu əməlləri ilə, birinci növbədə, onlar nüfuzdan düşür, ictimai qınağa tuş gəlirlər. İkincisi isə, bu metoda əl atanlar insani keyfiyyətlərdən uzaq adamlardır. Millət və dövlət haqqında şər-böhtan yazmağı rəva bilirsənsə, deməli, özünə qarşı bu cür ifadələri istənilən halda məqbul saymalı olacaqsan. Yəni onlar üçün bu, məqbul bir haldır. Əlbəttə, həmin şəxslər tərəfindən bu cür hərəkətlərə yol verilməsi heç də yaxşı hal deyil. Yaxşı olardı ki, həmin şəxslər ağıllarını başlarına yığaraq, getdikləri yoldan çəkinsinlər.

*- Müxalifətin ermənipərəst qüvvələrdən qidalandıqları deyilir. Bu barədə nə deyə bilərsiniz?*

- Milli və dövlətçilik maraqlarına düşmən kəsilənlər ermənipərəst dairələrin maliyyə imkanlarından yararlanmaqla dövlət və millət haqqında nalayıq ifadələr işlədirlər. Onların bu cür ifadələr işlətmələri insanda ikrah hissi doğurur. Yəni siyasətçinin mövqeyini tənqid edəndə, onun şəxsiyyətinə toxunmaq lazım deyil. Xaricdəki mühacirlər hansısa prosesdə bir çətinlik, bir səhv görürlərsə tənqid etsinlər və onun həlli yollarını göstərsinlər. Yəni tənqid budur və mən tənqidi bu cür başa düşürəm. Yəni iftira, böhtan, şər və nalayiq ifadələr insana yaraşmayan ifadələrdir. Bu cür əməllər qətiyyətlə pislənilir.

*- Doğulub boya-başa çatdığın Vətəninə düşmən kəsilmək olarmı?*

- Belə bir misal var: "İnsan yediyi qaba tüpürməz". Hansı ölkədə yaşamalarından asılı olmayaraq, hər bir kəsin bir vətəni var, o da Azərbaycandır. Yəni dövlətin və millətin mənafeyi daimidir. Ey xarici ölkələrdə olan şəxslər, əgər siz Azərbaycanın bədəninə bir ləkə yaxmaq və onun üstündə bir yara yaratmaq istəyirsinizsə, bu, ilk növbədə, bir vətəndaş və insan kimi yaramazlığınızı göstərir. Heç onları maliyyələşdirən insanlar da bu söyüş qrupunun mövqeyini dəstəkləmirlər. İnanmıram ki, onlar daxilən bunu qəbul etsinlər. Amma onlar özlərinin qaranlıq məqsədlərinə çatmaq üçün bu şəxslərdən istifadə edirlər. Əminəm ki, bunları maliyyələşdirərək hürdürənlərin özləri də bunu xoşlamırlar. Müəyyən müddət üçün bunlardan istifadə edəcəklər və sonra onları birdəfəlik şpiris kimi atacaqlar. Yəni bu cür şər-böhtanla məşğul olan insanların siyasi mühitdə uzun müddət yeri yoxdur. Sadəcə olaraq, bunlar suyun üzərindəki köpük kimidirlər. Yəni bir müddət görünəcəklər və sonra partlayıb, çıxıb gedəcəklər.

**GÜLYANƏ**



# Suraxanıda "Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan dövlətçilik tarixinin parlaq səhifəsidir" mövzusunda tədbir keçirilib

Dünən Suraxanı rayon hakimiyyətinin, Azərbaycan Respublikası Prezidenti Yanında Bilik Fondunun birgə təşkilatçılığı ilə 270 saylı tam orta məktəbdə "Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan dövlətçilik tarixinin parlaq səhifəsidir" mövzusunda maarifləndirici tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyəti başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Rəşid Məmmədov bildirib ki, Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 2018-ci il tarixli Sərəncamı ilə 2018-ci il Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin ölkəmizdə qeyd olunması azərbaycançılıq təfəkkürünün möhkəmlənməsinə və zənginləşdirilməsinə, həmçinin, gələcək nəsillərin müstəqil dövlətçilik ideyaları əsasında tərbiyə olunmasına xidmət edir.

Məruzə ilə çıxış edən Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin əməkdaşı Samir Mirzəyev 100 il bundan öncə, qısa və cəmi 23 ay ömür yaşamış Şərqin ilk Demokratik Respublikasının tarixi, onun fəaliyyəti haqqında ətraflı məlumat verib. Məruzəçi qeyd edib ki, Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoymuş, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə, respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlamışdır. O bildirib ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları, onların diplomatik fəaliyyəti, Cümhuriyyət dövründə parlamentin formalaşması və qısa müddət ərzində qəbul etdiyi qanunlar, elm və təhsil, siyasi partiyalar və dövlət quruculuğunda onların rolu, dövlət-din münasibətləri və s. sahələrdə fəaliyyəti barədə ətraflı məlumat verib. Daha sonra tədbirdə 270 saylı tam orta məktəbin direktoru Əli İsgəndərov çıxış edib.

**Zümrüd**

# Xaçmazlı gənclər Heydər Əliyev irsini həvəslə öyrənirlər



YAP Xaçmaz rayon təşkilatı Xaçmaz rayon Təhsil Şöbəsi ilə birgə Ümummilli Lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş məktəbli gənclər arasında keçirilən "Ən yaxşı təqdimat" müsabiqəsinin mükafatlandırılmasına həsr olunmuş tədbir keçirib.

Tədbiri giriş sözü ilə YAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev açaraq, Ümummili Lider Heydər Əliyevin təhsilə və gənclərə olan qayğısından danışaraq, bu gün Onun siyasi kursunu uğurla davam etdirən Yeni Azərbaycan Partiyasının Sədri, ölkə başçısı İlham Əliyevin müasir dövrün tələblərinə uyğun formada həyata keçirildiyi layihələri və islahatları diqqətə çatdırıb. Elm və təhsilə, gənclərin inkişafına daim diqqət göstərən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın böyük əməli fəaliyyətini xüsusi vurğulayıb.

YAP Xaçmaz rayon təşkilatı ilə rayon təhsil şöbəsinin birgə təşkilatçılığı ilə "Ən yaxşı təqdimat" layihəsinin uzun müddətdir ki, keçirilməsi qeyd olunub. Bu, Ulu Öndər Heydər Əliyev irsinin gənclər arasında təbliği, yayılması və gənclərimizin vətənpərvər ruhda tərbiyə olunması məqsədi daşıyır. Tədbirdə rayon Təhsil Şöbəsinin müdiri, YAP Xaçmaz rayon təşkilatının idarə heyətinin üzvü Mədinə Nurməmmədova, Xaçmaz rayon icra hakimiyyəti başçısının birinci müavini, YAP Xaçmaz rayon təşkilatının şura üzvü İlhamə Nəzərova çıxış edərək, Ulu Öndər Heydər Əliyevin gənclərə və təhsilə qayğısından, Prezident İlham Əliyevin bu sahəyə diqqətindən danışıblar. Sonra tədbirdə birinci yer tutmuş Jalə Səfərəliyevanın təqdimatı dinlənilib. Tədbirdə 700 bal toplamış Rəcəbova Jalə Süleyman qızını təbrik edərək, ona uğurlar arzulayıblar. Yekunda qaliblər qiymətli hədiyyə və diplomla təltif olunublar.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Oğuzda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə bağlı şahmat turniri keçirilib

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" müvafiq Sərəncamına əsasən Oğuz rayonunda silsilə tədbirlər davam edir. Yeni Azərbaycan Partiyasının Oğuz rayon təşkilatı və rayon bələdiyyəsinin birgə təşkilatçılığı ilə şahmat üzrə rayon turniri keçirilib.



Tədbiri giriş sözü ilə açan Oğuz rayon icra hakimiyyətinin başçısının müavini Yusif Naxçıvanski bildirib ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyini ölkəmizdə qeyd olunması azərbaycançılıq təfəkkürünün möhkəmlənməsinə və zənginləşməsinə, həmçinin, gələcək nəsillərin müstəqil dövlətçilik ideyaları əsasında tərbiyə olunmasına xidmət edir.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyasının Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov 100 il bundan əvvəl cəmi 23 ay ömür yaşamış Şərqin ilk Demokratik Respublikasının tarixinə ətraflı nəzər salaraq, onun fəaliyyəti haqqında geniş məlumat verib: "Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan dövlətçilik tarixinin parlaq səhifəsidir. Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoyub, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə ölkəmizin gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlayıb".

Oğuz rayon Gənclər və İdman İdarəsinin müdiri Ramiz Mahmudov çıxışında Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları, onların diplomatik fəaliyyəti, bu dövrdə parlamentin formalaşması və qısa müddət ərzində qəbul etdiyi qanunlar, elm və təhsil, siyasi partiyalar və dövlət quruculuğunda onların rolu, dövlət-din münasibətləri və digər sahələrdə fəaliyyəti barədə ətraflı məlumat verib.

Daha sonra tədbirdə Oğuz bələdiyyəsinin sədri Arif Cavadov və Oğuz rayon Şahmat Məktəbinin direktoru Nizami Hüseynli çıxış edib. Tədbirin sonunda şahmat yarışı qaliblərinə qiymətli hədiyyələr təqdim olunub.

**ZÜMRÜD**

# Laçının işğal tarixindən 26 il ötür

***1992-ci il mayın 17-də Ermənistan ordusu Şuşanın Turşsu kəndi və Ermənistanın Gorus rayonu istiqamətindən hücuma keçərək, Laçını işğal edib. İşğal 18 mayda tam başa çatıb. Bu, hər bir azərbaycanlının 26 ildir ki, xatırladığı ağrılı-acılı gündür - Laçınının işğalı günü. Düz 26 il əvvəl törədilən işğalın acı nəticələrini bu gün də yaşayırıq. Laçının işğalı damarında azərbaycanlı qanı dövr edən hər kəs üçün çox ağırdır.***



*Erməni faşistləri zəbt etdikləri torpaqlarımızı, şəhərlərimizi, o cümlədən, doğma Laçını sülh yolu ilə tərk etməsələr, Azərbaycan xalqı və onun rəşadətli ordusu düşməni məhv edərək, öz torpaqlarını azad edəcəkdir.*

Qeyd edək ki, Şuşa şəhərinin Turşsu deyilən ərazisindən və Ermənistanın Gorus rayonu istiqamətindən hücuma keçən erməni ordusu Laçını işğal edib. Rayonun işğalını reallaşdıran düşmən qüvvələrinin böyük hissəsi Laçın dəhlizi vastəsilə daxil olub. Laçın işğal olunmamışdan bir gün qabaq Azərbaycanın dağınıq halda olan silahlı dəstələrinin böyük əksəriyyəti cəbhə bölgəsini tərk edib. Bu işğala səbəb o vaxtkı iqtidarın və hakimiyyət uğrunda mübarizə aparan anti-milli qüvvələrin fəaliyyəti idi. Laçının işğalı Dağlıq Qarabağla Ermənistan arasında əlaqənin yaranmasına gətirib çıxartdı. İşğal nəticəsində 1835 kv. kilometrlik ərazi zəbt edildi, yüzlərlə maddi-mədəniyyət nümunəsi erməni vandalizminə tuş gəldi. 24 ildir ki, 60 mindən artıq laçınlı respublikanın 59 şəhər və rayonunda müvəqqəti məskunlaşaraq, məcburi köçkünlük həyatı yaşayır. Rayonun işğalı nəticəsində 1 şəhər, 1 qəsəbə, 125 kənd, 13 min 745 fərdi ev, 48 sənaye, 63 kənd təsərrüfatı obyekti, 101 məktəb, 5 məktəbdənkənar, 2 məktəbəqədər müəssisə, 1 peşə məktəbi, 142 səhiyyə, 217 mədəni-maarif, 460 ticarət obyekti, 30 rabitə qovşağı, xalq teatrı, tarix-diyarşünaslıq muzeyi, 200-dən çox tarixi abidə talan edilərək dağıdılıb. Müharibə zamanı 267 laçınlı şəhid olub, 66 nəfər girov götürülüb, 105 nəfər əlilə çevrilib. Bu statistik rəqəmlər Laçının erməni qəsbkarları tərəfindən necə zəbt olunmasını açıq-aydın göstərir. Bütün dünyanın və beynəlxalq təşkilatların işğalçı ölkə kimi tanıdığı Ermənistanın silahlı qüvvələri bu şəhərdə Azərbaycan xalqının izlərini silmək, onu unutdurmaq üçün ən ağlagəlməz cinayətlərə əl atırlar. Təbii ki, Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, Laçının işğal altına düşməsi təkcə laçınlıların deyil, bizim hamımızın böyük faciəsidir: “Çünki Laçının gözəl abidələri indi dağıdılıbdır. Bizim dini abidələrimiz dağıdılıbdır. Muzey eksponatlarımız talan edilibdir, evlər dağıdılıbdır. Laçınlıların evlərində indi düşmənlər yaşayır. Bu da bir dərddir. Evin sökülməsi dərddir, amma evdə düşmənin yaşaması ondan da böyük dərddir”. Prezident İlham Əliyev Laçın rayonunun belə vəziyyəti ilə barışmağın mümkün olmadığını bildirib.

### “...BÜTÜN DÜNYA BİRLİYİ AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜ TANIYIR”

İndi Azərbaycan dünya səviyyəsində böyük hörmətə malik olan ölkə kimi tanınır. Azərbaycanın iqtisadi potensialı və hərbi gücü onu deməyə əsas verir ki, işğal altında olan torpaqlarımızın azad olunacağı gün uzaqda deyil. Bu, qaçılmaz reallıqdır. “Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir, bütün köçkünlər öz doğma torpaqlarına qayıtmalıdırlar” - deyən Prezidentin bu fikirləri Azərbaycan həqiqətlərinə söykənir: “Biz bu illər ərzində böyük dərəcədə güclənmişik. Biz güclü hərbi potensial yaratmışıq. Bundan sonra, növbəti illərdə Ermənistan ilə Azərbaycan arasındakı fərq ancaq böyüyəcəkdir. Bu fərq hər yerdə özünü göstərir - iqtisadiyyatda, ölkələrimizin siyasi çəkisində, beynəlxalq dəstəkdə, hərbi potensialda və eyni zamanda, demoqrafik göstəricilərdə”.

Hazırda Azərbaycan danışıqlar prosesini, ardıcıl olaraq, davam etdirir. Azərbaycan Ermənistanla müqayisədə istənilən sahədə irəlidədir və qələbə əzmi də ölkəmizdə yüksəkdir. Bütün beynəlxalq təşkilatların qərarları və qətnamələri Azərbaycanın haqlı mövqeyini müdafiə etsə də, erməni lobbisi və havadarları ermənilərə dəstək olurlar. Ermənistan beynəlxalq təşkilatların, BMT-nin, onun Təhlükəsizlik Şurasının qətnamələrini icra edilməlidir. “Beynəlxalq ictimaiyyət tələb etməlidir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan çəkilsin, imkan versin və Azərbaycan vətəndaşları o torpaqlara qayıtsınlar. Çünki bütün dünya birliyi Azərbaycanın ərazi bütövlüyünü tanıyır”, - deyən Cənab İlham Əliyev dünya erməniliyinin və onların arxasında dayanan anti-Azərbaycan qüvvələrinin fəaliyyəti nəticəsində, bu məsələnin belə dondurulmuş vəziyyətdə qaldığını bəyan edir.

### “DAĞLIQ QARABAĞ AZƏRBAYCANIN AYRILMAZ HİSSƏSİDİR VƏ BÜTÜN CƏMİYYƏTİN DİQQƏTİ BU MƏQSƏDƏ YÖNƏLİB”

Təbii ki, işğal altında olan torpaqlarımız işğalçılardan azad ediləndən sonra, bütün torpaqlarda, o cümlədən, Laçında yeni inkişaf dövrü yaşanılacaq. Buna Azərbaycanın iqtisadi gücü var. Bu gün respublikamızın, ümumilikdə, 59 rayon və şəhərində müvəqqəti məskunlaşan 71,2 min laçınlıdan 13 mini Ağcabədi rayonu Taxtakörpü ərazisində yerləşib. Məcburi köçkünlər üçün burada yeni yaşayış qəsəbələri, parklar salınıb və Şəhidlər Kompleksi ucaldılıb. Taxtakörpü ərazisində Laçın rayonundan olan 552 məcburi köçkün ailəsi üçün salınan qəsəbədə bütün imkanlar yaradılsa da, dövlət başçısının apardığı prinsipial və ardıcıl siyasəti, birmənalı şəkildə, müdafiə edən laçınlılar el-obalarına - Laçına getmək arzusundadırlar. Ölkəmizin artan beynəlxalq nüfuzu və hərbi qüdrəti onların dədə-baba torpaqlarına tezliklə dönəcəklərinə əminlik yaradıb. İyirmi altı illik məcburi köçkünlük həyatı yaşamalarına baxmayaraq, inanırlar ki, işğal altındakı bütün ərazilərimiz düşmən tapdağından azad ediləcək.

Azərbaycan Prezidenti Cənab İlham Əliyev işğal altında olan torpaqlarımızın geri qaytarılacağını çıxışlarında əminliklə qeyd edir: “Bizim orduda xidmət edən gənclərimiz vətəni ləyaqətlə qoruyurlar və düşmənə çox güclü zərbələr vururlar. Belə də olmalıdır, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və bütün cəmiyyətin diqqəti bu məqsədə yönəlib. Cəmiyyətdə müşahidə olunan həmrəylik, səfərbərlik bizim qələbəmizi şərtləndirən amillərdən biridir, iqtisadi və hərbi gücüdür. Biz istənilən yolla öz ərazi bütövlüyümüzü bərpa edəcəyik”.

Erməni faşistləri zəbt etdikləri torpaqlarımızı, şəhərlərimizi, o cümlədən, doğma Laçını sülh yolu ilə tərk etməsələr, Azərbaycan xalqı və onun rəşadətli ordusu düşməni məhv edərək, öz torpaqlarını azad edəcəkdir. Bu gün Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Milli Ordusu, Hərbi-Hava Qüvvələri və Hava Hücumundan Müdafiə, Hərbi-Dəniz Donanması və Quru Qoşunlarından ibarətdir. Bu qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq gücündədir. MDB çərçivəsində Azərbaycan Hava Hücumundan Müdafiə Qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. Azərbaycan Prezidenti İlham Əliyevin “Bu gün Azərbaycan Ordusunda olan texnika ən güclü ordulardan da geri qalmır” - fikrini ifadə etməsi, məhz bu gerçəkliklərdən qaynaqlanır.

Peşəkarlıqla yanaşı, ordunun maddi-texniki bazası da möhkəmlənib. Bu istiqamətdə son illər ərzində böyük işlər görülüb. Azərbaycan iqtisadiyyatının yüksəlişi, bütün sahələrdə olduğu kimi, ölkənin hərbi qüdrətinin də artmasında müsbət təsirini göstərib. Son bir neçə il ərzində Azərbaycanda müasir və çox güclü Hərbi-Sənaye Kompleksi yaradılıb. Azərbaycan Silahlı Qüvvələri bu gün müasir texnika ilə təchiz edilib və bunun nəticəsi olaraq, Vətənin müdafiəsinə daim hazır olan yüksək nizam-intizama malik ordumuz var. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, “Ordu quruculuğu, müdafiə potensialının möhkəmlənməsi və güclü ordunun yaranması dövlət üçün, hökumət üçün və hər bir vətəndaş üçün bir nömrəli vəzifədir. Biz bu istiqamətdə öz səylərimizi davam etdirəcəyik”.

### ERMƏNİSTANIN, ONUN İŞĞALÇILIQ SİYASƏTİNİN HEÇ BİR PERSPEKTİVİ YOXDUR

Ölkəmizin son illərdə dinamik inkişafı, silahlı qüvvələrin büdcəsinin artması və nəticə etibarilə ordumuzun güclənməsi ilə müşayiət olunması Cənab Prezidentin öz vədinə sadiq olduğunu bir daha təsdiq edir. Bəli, bu gün Azərbaycanın güclü və müasir ordusu vardır. Azərbaycan Ordusu qarşısında duran bütün vəzifələri həll etməyə qadir olan bir ordudur və heç şübhəsiz ki, belə gücə malik nizami ordu işğal altındakı torpaqlarımızı erməni təcavüzkarlarından təmizləməyə və üçrəngli bayrağımızı Dağlıq Qarabağda dalğalandırmağa qadirdir. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində, gündən-günə daha da möhkəmlənir və döyüş qabiliyyətini artırır.

Vətən övladları sərhədlərimizin keşiyində ayıq-sayıq dayanırlar. Günün müxtəlif vaxtlarında Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən, mütəmadi olaraq, atəşkəs rejimi pozulsa da, əsgər və zabitlərimizin ayıq-sayıqlığı nəticəsində düşmən susdurulur və kəşfiyyat-təxribat qruplarının qarşısı vaxtında alınır. Azərbaycan işğalçı ölkəyə də, onun havadarlarına da, bütün ermənipərəstlərə də göstərir ki, güclü ordumuz işğalçı erməni qəsbkarlarını istənilən an məhv etmək imkanına malikdir. Düşmən tərəf ordumuzun qüdrətinə bələddir. Ermənistanın, onun işğalçılıq siyasətinin heç bir perspektivi yoxdur və Azərbaycan əraziləri işğaldan azad olacaq.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Dağıdıcı müxalifətin Azərbaycanın milli maraqları ilə heç bir bağlılığı yoxdur

## *Azərbaycan sabitliyin hökm sürdüyü ölkədir və Prezidentin siyasi kursu cəmiyyət tərəfindən dəstəklənir*

***İddiaları və imkanları bir araya sığmayan radikal müxalifət düşərgəsi öz fəaliyyəti ilə müstəqil Azərbaycanın varlığına əks mövqe tutanlarla eyni əqidədə və eyni cəbhədə olduğunu getdikcə daha aydın şəkildə nümayiş etdirir. Anti-azərbaycançı şəbəkənin bir hissəsi, eyni zamanda, buyruq qulu olduğunu əməlləri ilə hər zaman təsdiq edən radikal düşərgə təmsilçilərinin, korporativ maraqları naminə ölkənin milli mənafelərini istənilən an qurban verməyə hazır olduqları da isbata ehtiyacı olmayan aksiomdur.***

Fəaliyyətini Azərbaycanın siyasi qütbündə artıq neçə illərdir radikal müstəvi üzərində quran və beləliklə, cəmiyyətdə xaotik vəziyyət yaratmaq məqsədi güdən, bunun üçün bütün mümkün variantlardan istifadə etməyə çalışan siyasi qüvvələr, təəssüflər olsun ki, hələ də mövcuddur. Bura, əsasən, Müsavat Partiyası, Azərbaycan Xalq Cəbhəsi Partiyası və onlara yardımçı xarakter daşıyan ayrı-ayrı siyasi qurumlar, qruplar və bir neçə kiçik "cırtdan" partiya daxildir. Beynəlxalq səviyyədə qəbul edilən normalardan istifadə etmək, xalqın etimadını qazanmaq əvəzinə, ölkədə xaotik durum yaratmaq, müxtəlif rənglər altında inqilablar etməyə çalışmaq, sayı elə də çox olmayan narazı insanlardan istifadə etməklə dağıdıcı fəaliyyət göstərmək, qarşıdurma yaratmaqla öz çirkin siyasi niyyətlərinə çatmaq arzusunda olanların müxtəlif adlar altında cəmləşməkdə yeganə məqsədi hakimiyyətə gəlməkdir. Keçirilən seçkiləri yada salsaq, görərik ki, hər seçkiqabağı dağıdıcı qüvvələrin iştirakı ilə müxtəlif təşkilatlar yaradılsa da, seçkilərdə Azərbaycan xalqı həmin dağıdıcı qüvvələrin niyyətlərinin reallaşmasına öz iradəsi hesabına imkan vermədi. Nəticədə, hər seçkidə radikallar böyük iflasa uğradı. Tam gücsüzlüyünü yaxşı başa düşənlər son seçkilərdə, ümumiyyətlə prezident seçkilərinə qatılmamaqdan başqa çarə tapa bilmədilər. Bəlli idi ki, Azərbaycan xalqı, faktiki olaraq radikal müxalifətə lap çoxdan yox deyib və onları tarixin qaranlıq arxivinə göndərib. Beləliklə, radikal müxalifətin mövcud vəziyyətini təhlil etsək, görərik ki, sözügedən cəbhədə yer alanlar. Bu gün heç bir sosial bazaya və cəmiyyətdə hər hansı nüfuza malik deyillər və bu düşərgənin təmsilçiləri xalq tərəfindən dəstəklənmir. Nə də onların çağırışlarına, narazılıqlarına, haqsız iradlarına məhəl qoyan yoxdur. Toplaşmaq, mini-aksiyaya bənzər mitinq keçirmək arzusunda olanlar bunun da sosial sifarişi olmadığını dərk etmək və etiraf etmək məcburiyyətindədirlər. Çünki bu niyyətləri, bu planları da özünü doğrultmadı, ictimai dəstəkdən məhrum olduqlarını, nəinki özləri gördülər, hətta havadarları belə bunun tam real şahidi oldular. Son dövrlər dünyada gedən müəyyən proseslərdən ruhlanan radikal müxalifət özlərinin xaricdəki himayədarlarının təlimatlarına və maliyyə yardımlarına söykənərək, yenə də ölkədə xaotik bir durum yaratmağa çalışsalar da, onların gücsüzlüyünün şahidi olan havadarları da dəstək vermədi, xalq da onların bu çirkin niyyətlərinin həyata keçməsinə imkan vermədi. Azərbaycan bu gün sabitliyin hökm sürdüyü bir ölkədir və xalqın mütləq əksəriyyətinin səs verdiyi Prezidentin siyasi kursu cəmiyyət tərəfindən birmənalı şəkildə dəstəklənir. Bu da radikal müxalifətin çirkin niyyətinin həyata keçməsinə Azərbaycanda hər hansı zəmin olmadığını göstərir və xalq tərəfindən sözügedən düşərgəyə heç bir dəstək ola bilməz.



### Radikallar ermənilərin və ermənipərəstlərin timsalında Azərbaycan əleyhinə fəaliyyət göstərən tamın hissələridir

Doğrudur, bu da sirr deyil ki, Azərbaycanı istəməyən müəyyən xarici qüvvələr, dövlətlər mövcuddur və ölkəmizin təbii ehtiyatlarını, coğrafi imkanlarını ələ keçirmək istəyənlər az deyil. Hətta Azərbaycan uğrunda müəyyən beynəlxalq güclər arasında mübarizə də gedir. Bu mübarizədə ölkəmizi istəməyən, onun əleyhinə fəaliyyət göstərən yerli qüvvələrdən, məsələn, radikal müxalifətdən də istifadə olunur. İstənilən auditoriyada, istənilən arqument və faktlarla sübuta yetirmək mümkündür ki, xarici qüvvələrin əlində alətə çevrilən, öz çirkin niyyətinə çatmaq, məqsədlərini həyata keçirmək istəyən radikal müxalifətin maraqları ilə Azərbaycan əleyhinə fəaliyyət göstərənlərin mövqeləri, birmənalı şəkildə üst-üstə düşür. Bu, həm də onu göstərir ki, ərazilərimizin bir hissəsini işğal edən Ermənistanla, ermənilərlə Azərbaycanı asılı bir ölkəyə çevirmək istəyən radikal müxalifət arasında hər hansı bir fərq yoxdur. Əksinə, xəyanət daha iyrənc və çirkin olduğu üçün radikal kimi tanıdığımız ünsürlər daha mənfur hesab oluna bilərlər. Əbəs yerə deyil ki, tez-tez onlar özləri-özlərini bədnam qonşularla müqayisə edir, Ermənistanda cərəyan edən hadisələrdən bəhrələnməyi, Azərbaycanda da oxşar bir xaos yaratmağı arzulayırlar. Bəlli olur ki, bunlar ermənilərin və ermənipərəstlərin timsalında Azərbaycan əleyhinə fəaliyyət göstərən tamın hissələridir.

Məlum olur ki, radikal müxalifətin Azərbaycanın milli maraqları ilə heç bir bağlılığı yoxdur və bu müxalifət, ələlxüsus, onun önündə gedən Müsavat Partiyası, AXCP üçün milli maraqlar yox, öz korporativ maraqları əsasdır və onların bu mövqeyi Azərbaycanı istəməyən düşmən qüvvələrin, anti-azərbaycançı şəbəkənin maraqları ilə tam olaraq üst-üstə düşür. Beləliklə də cəsarətlə demək olar ki, radikal müxalifətin və ölkəmizə qarşı olan qüvvələrin maraqlar sistemi Azərbaycanın milli maraqları ilə tam ziddiyyət təşkil edir və mahiyyət etibarilə radikalların, eyni zamanda, anti-azərbaycançı qüvvələrin maraqları sırf düşmənçilik xarakteri daşıyır. Əgər beynəlxalq səviyyədə açıq etiraf edilirsə ki, Azərbaycanda sürətli inkişaf var, insanların maddi rifah halının davamlı şəkildə yüksəlməsi təmin edilir, insanların öz hüquqlarından qanunvericilik səviyyəsində rahat bir şəkildə istifadə etməsinə şərait yaradılır, deməli, bu gün ölkədə hər hansı kütləvi etirazın olmasına heç bir zəmin yoxdur. Lakin sosial bazası olmayan radikal müxalifət ehtiyac və sosial sifariş olmadığı halda, kütləvi etiraz aksiyaları keçirməyə can atırsa, qarışıqlıq, xaos yaratmaq arzusundadırsa, bu, nədən irəli gəlir və düşmənçilikdən savayı bunun başqa nə adı ola bilər?

Etiraf etmək lazımdır ki, ötən illər ərzində dünyanı bürüyən, hələ də davam edən maliyyə və iqtisadi böhran Azərbaycana hər hansı ciddi təsir göstərə bilmədi və Azərbaycan, hal-hazırda sözün həqiqi mənasında, ən sabit və dinamik inkişaf edən ölkələr sırasındadır. Dünyanın aparıcı maliyyə institutlarının etiraf etdiyi kimi, bu gün inkişafın bir Azərbaycan modeli, fenomeni meydana çıxıb və bu model Azərbaycanın iqtisadi və maliyyə sisteminin kifayət qədər dayanıqlı olduğunu ortaya qoyub.

Azərbaycanın bu dayanıqlı inkişafının əsas səbəbi, təbii ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasət və bu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin fəaliyyəti ilə bağlıdır. Ölkəmizdə yaşanan tərəqqini hər bir azərbaycanlı ailəsi öz üzərində hiss edir və bu səbəbdən, ölkəmizin sosial-iqtisadi inkişafının dinamik xarakter daşıması, Azərbaycanda demokratik proseslərin davamlı inkişafı, vətəndaş cəmiyyətinin möhkəmlənməsi, təkmilləşməsi, bir sözlə, bəşəri dəyərlər əsasında respublikamızın inkişafı danılmaz bir faktdır və bunu dünyanın nüfuzlu təşkilatları, dövlətləri və siyasi xadimləri də etiraf edirlər.

**İnam HACIYEV**

---

## Fələstin Vaşinqtondakı nümayəndəsini geri çağırıb

Fələstin Milli Administrasiyasının Vaşinqtondakı nümayəndəsi Husam Zomlot administrasiya rəhbəri Mahmud Abbasın göstərişi ilə ABŞ-ı tərk edir. AZƏRTAC bu barədə Associated Press informasiya agentliyinə istinadla xəbər verir. "ABŞ öz səfirliyini Qüdsə köçürdükdə biz də qərar qəbul etməyə məcbur olduq və bu, bizim qərarımızdır", - deyə Fələstinin xarici işlər naziri Riad Maliki administrasiyanın qərarını şərh edib.



Xatırladaq ki, mayın 14-də Qüdsdə ABŞ-ın yeni səfirliyinin açılış mərasimi olub. Mərasim üçün işğal edilmiş Fələstin torpaqlarında İsrail dövlətinin qurulmasının ildönümü günü seçilib. Həmin gün fələstinlilər Qəzza sektorunun sərhədi boyu miqyaslı etiraz aksiyaları keçirib. İsrail ordusunun etirazçılara atəş açması nəticəsində 60 nəfərdən çox fələstinli həlak olub, azı 2 min nəfər isə yaralanıb.

## İçərisində 70 min manat olan çantanı oğurlayanlardan biri saxlanılıb

Daxili İşlər Nazirliyinin (DİN) Baş Cinayət Axtarışı İdarəsi və Mingəçevir Şəhər Polis Şöbəsinin əməkdaşlarının birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində aprelin 30-da Mingəçevirdəki şirkətlərin birində ekspeditor işləyən E.Abdullayevi evinin girişində fənərə oxşar alətlə vuraraq şirkətə məxsus, içərisində 70 min manat olan çantanı onun əlindən almaqda şübhəli bilinən qrupun digər üzvü - Mingəçevir şəhər sakini Yaşar Kərimov da saxlanılıb.



DİN-nin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, faktla bağlı Mingəçevir Şəhər Polis Şöbəsində araşdırma aparılır.

## ATƏT cəbhədə monitorinq keçirib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, mayın 16-da Xocavənd rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində monitorinq keçirilib. MN-dən SİA-ya verilən məlumata görə, monitorinq insidentsiz başa çatıb.



# Bugünkü Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin siyasi varisidir

***XX əsrin ikinci onilliyinin axırlarında dini təyinatlı məkanların əksəriyyəti xalqın məşvərət yerinə çevrilmişdi, din xadimləri isə milli oyanışa dəstək verirdilər. Təzəpir məscidi və İsmailiyyə binası bu qəbildən olan mərkəzlərdən hesab edilirdi. Düşmən Azərbaycan xalqının birliyinin təmin olunmasında Təzəpir məscidinin oynadığı rolu yaxşı bilirdi. Ona görə də, mart ayının 31-də müsəlman əhalisinə qarşı soyqırımına başlayan daşnak-bolşevik birləşmələri XX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi həyatında, eləcə də, milli şüurun oyanmasında, elmi-dini maarifçiliyin təbliğində xüsusi rola malik olan "İsmailiyyə" binasını, "Kaspi" qəzetinin redaksiyasını və mətbəəsini, orada yenicə çap olunmuş Qurani-Kərimin 5 min nüsxəsini yandırıb külə döndərdilər.***

1918-ci ilin mart qırğınları günlərində və ondan sonrakı dövrdə soyqırımına məruz qalmış on minlərlə müsəlmanın dəfn mərasimlərinin təşkilinə, müsəlmanların təşkilatlanmasına və müxtəlif qabaqlayıcı tədbirlərin görülməsinə Təzəpir məscidi rəhbərlik etdi. Azərbaycan xalqına qarşı həyata keçirilən bu müsibətlərdə milli ruhlu ziyalıların əksəriyyəti Təzəpir məscidinə gələrək, əhalini səbirli və dözümlü olmağa çağırdılar. Azərbaycanda bütün dinlərə, o cümlədən, əhalinin mütləq əksəriyyətinin etiqad bəslədiyi islam dininə hörmət və ehtiramı ən yüksək səviyyədə idi. Çar Rusiyası dövründə "Parçala, hökm sür!" siyasətini asanlaşdırmaq üçün yaradılmış və ayrı-ayrılıqda fəaliyyət göstərən şiə və sünni müsəlmanları ruhani qurumları birləşdirilərək, Qafqaz Müsəlmanları Ruhani İdarəsi "Məşixət"i-İslamiyyə" yaradıldı. "Məşixət"in yaranması, "İttihadi-İslam" Firqəsinin siyasi fəaliyyəti və Dini Etiqad Nazirliyinin yaradılması, nazir müavinlərinin ruhanilərdən təşkil olunması, eləcə də, digər məsələlər Azərbaycan Cümhuriyyətinin, dünyəvi dövlət olsa da, islam dininə və din xadimlərinə yüksək imtiyazlar verdiyini göstərir və hətta siyasi fəaliyyətlə də məşğul olmaları üçün geniş imkanlar yaradırdı. Din xadimləri də, öz növbəsində, xalqımızın o illərdə düşdüyü çətin siyasi və iqtisadi böhrandan qalib ayrılması üçün mənəvi maarifləndirmə və dəstək işləri ilə məşğul olur, müharibədə zərər çəkmiş ailələrə və yaxınlarını itirmiş uşaqlara qayğı göstərmək üçün xeyriyyə missiyasını üzərlərinə götürdülər. Xalqımızın öz müqəddəratını həll etmək istiqamətindəki mübarizəsində islam amili XIX əsrin sonu, XX əsrin əvvəllərində xüsusi rol oynamışdır. Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi və iki il yaşaması ilə nəticələnən milli intibah, demokratikləşmə, maarifçilik və xeyriyyəçilik hərəkatları din xadimlərinin köməyi olmadan vüsət ala bilməzdi. Ümumiyyətlə, XIX əsr müstəmləkə rejimlərinə qarşı milli azadlıq hərəkatları ilə zəngindir. "İttihadi-islam" ideyası həmin silsilənin ideoloji əsası olmaqla, böyük dövlətlərin, xüsusilə, Rusiya imperiyasının milli-dini ayrı-seçkilik siyasətinə qarşı müsəlman xalqlarının həmrəyliyində mühüm rol oynamışdır.

Bugünkü Azərbaycan Respublikası 1918-ci ildə yaradılmış Xalq Cümhuriyyətinin siyasi varisidir. 70 il hökm sürən sovet ateist rejimi xalqımızın üreyindən dini-mənəvi dəyərlərə sadiqliyi çıxara bilmədi. Müstəqilliyimizi bərpa etdikdən sonra sovet dövründə taxıl anbarlarına və klublara çevrilmiş məscidlər əvvəlki fəaliyyətini bərpa etdi. Müstəqil Azərbaycan dünyəvi prinsipləri əsas tutaraq dünyaya inteqrasiya edir, lakin dini-mənəvi dəyərləri uca tutur. Əsası Cümhuriyyət dövründə qoyulmuş üçrəngli bayrağımızın bir rəngi islam dinini dəyərləndirir. Bu, dövlət və din münasibətlərinin əsasını təşkil edir.

Böyük mesenat Hacı Zeynalabdin Tağıyevin milləti üçün açdığı işıqlı yolu ADR hökuməti davam etdirdi. Cümhuriyyət parlamenti xalq maarifinin inkişafına çox mühüm təkan verən ilk tədbirlərdən birini - 1918-ci il 27 iyun tarixli qərarı qəbul etdi. Qərara əsasən, Azərbaycan-türk dili dövlət dili elan edildi. Lakin ana dilini mükəmməl bilən ixtisaslı kadrların olmaması qərarın həyata keçirilməsini çətinləşdirirdi. Buna görə də, inzibati-idarə orqanlarında, məhkəmə işində və başqa sahələrdə Azərbaycan dilini bilən ixtisaslı kadrlar hazırlanana qədər müvəqqəti olaraq rus dilindən istifadəyə yol verilirdi. Cümhuriyyət Hökuməti milli kadrların yetişdirilməsinə, bu sahədə təhsilin tamamilə yenidən qurulmasına xüsusi əhəmiyyət verirdi. Təhsil sahəsində həyata keçirilən ilk mühüm tədbir məktəblərin milliləşdirilməsi oldu. Hacı Zeynalabdin Tağıyev təhsil, maarif, mədəniyyət və mətbuatla bağlı həyata keçirilən bütün tədbirlərdə iştirak edir, bunun üçün son qəpiyini də əsirgəmirdi.

Azərbaycan Hökumətinin 1918-ci il 28 avqust tarixli qərarında göstərilirdi ki, bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin ana dilində aparılmalı və dövlət dili olan Azərbaycan dilinin tədrisi icbari surətdə həyata keçirilməlidir. Azərbaycan dilini bilməyən şagirdlər üçün üçüncü və dördüncü siniflərdə Azərbaycan dili intensiv şəkildə tədris olunurdu ki, 2 ildən sonra həmin şagirdlər artıq ana dilində təhsillərini davam etdirə bilsinlər.

Xalq təhsilini milli möhkəm zəmin üzərində yenidən qurmaq üçün ixtisaslı müəllim kadrlarına və dərs vəsaitinə böyük ehtiyac var idi. O dövrdə ölkədəki mövcud müəllim kadrları ilə bu işin öhdəsindən gəlmək mümkün deyildi. Bu vəzifəni yerinə yetirmək üçün başlıca yol Türkiyədən müəllim dəvət etmək və qısamüddətli kurslarda Azərbaycan dilində savadlı olan şəxslərdən müəllim kadrları hazırlamaq idi. 1918-ci il iyulun 23-də Azərbaycan hökuməti ölkənin tədris müəssisələri üçün Türkiyədən müəllim kadrları dəvət etmək və dərs vəsaiti tədarükü haqqında xüsusi qərar qəbul etdi. Türkiyə həyatı ilə yaxından tanış olan Əhməd bəy Ağayevin bu məqsədlə İstanbula ezam edilməsi Xalq Maarifi Nazirliyinə tövsiyə olundu. Millətinin hər dərdinə qalan Hacı yenə də xeyir işin başında oldu. Cümhuriyyət qurucuları həm onun təcrübəsindən, həm də maddi dəstəyindən yararlandılar.

Tədris müəssisələrinin milliləşdirilməsinin və genişləndirilməsinin daha uğurla həyata keçirilməsi üçün 1919-cu ilin yayında ibtidai və orta məktəblərin aşağı siniflərini müvafiq milli kadrlarla təmin etmək məqsədilə qısamüddətli pedaqoji kurslar təşkil olunur. Hökumətin qərarına görə bu məqsədlə Xalq Maarifi Nazirliyinin sərəncamına 2 milyon 390 min manat vəsait ayrılır. Bakı, Gəncə və Nuxada kişi və qadın, Şuşa, Qazax, Qusar, Salyan və Zaqatalada kişi pedaqoji kursları açılır. Hər kursda, ən azı, 50 nəfər müdavim təhsil alır. Kursları bitirənlərin, demək olar ki, hamısına məktəblərdə müəllim yeri verilirdi. Cümhuriyyət Hökuməti dərs vəsaitlərinin hazırlanması və nəşrinə də ciddi diqqət yetirirdi. Bunun üçün Maarif Nazirliyinin xüsusi komissiyası təşkil edilmişdi. 1919-cu ildə "Türk əlifbası", "Təzə elmi hesab", "İkinci il", "Yeni məktəb", "Ədəbiyyat" dərsləri, "Müntəxəbat", "Türk çələngi", "Tarixi-təbii", "Rəhbər cəbr" dərslikləri nəşr olunurdu. Dərsliklərin hazırlanmasında Azərbaycan maarif və ədəbiyyatının görkəmli nümayəndələri Firidun bəy Köçərli, Hüseyn Cavid, Mahmud bəy Mahmudbəyov, Abdulla Şaiq, Camo bəy Cəbrayılbəyli, Səməd ağa Ağamalıoğlu, Fərhad Ağazadə, Ağa bəy İsrafilbəyov, Abdulla bəy Əfəndizadə və başqaları fəal iştirak edirdilər. Azərbaycan Parlamentinin 1919-cu il 18 sentyabr tarixli qərarı ilə türk dilində yeni kitablar almaq üçün Xalq Maarifi Nazirliyinin sərəncamına 1 milyon manat vəsait ayrılır.

Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlər nəticəsində, artıq 1919-cu ilin əvvəllərində ölkədə dövlət hesabına 637 ibtidai məktəb və 23 orta ixtisas təhsilli məktəb fəaliyyət göstərirdi. Orta məktəblər arasında 6 kişi və 4 qadın gimnaziyası, 5 realnı məktəb, 3 müəllimlər seminariyası, 3 müqəddəs Nina Qız Tədris Müəssisəsi, politexnik məktəb və kommersiya məktəbi var idi. 1919-cu ilin əvvəllərində Bakı Qadın Müəllimlər Seminariyası kişi müəllimlər seminariyasına çevrildi. Atalar-analar artıq heç nədən çəkinmədən qızlarını məktəbə göndərirdilər. Hökumət xalqın milli ənənələr, vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm rol oynayan muzeylərin, digər maarif və sənət ocaqlarının açılması sahəsində də mühüm tədbirlər həyata keçirirdi.



***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Səs
Son səhifə 17 may

## Kral ailəsinə məxsus mavi almaz hərracda 6,7 milyon dollara satılıb



Mavi almaz İsveçrənin Cenevrə şəhərində keçirilən hərracda 6,7 milyon dollara satılıb. Alıcının kimliyi açıqlanmır. AZƏRTAC Anadolu agentliyinə istinadla xəbər verir ki, BBC-nin məlumatına görə, hərraca çıxarılan 6,1 karatlıq almaz İspaniya Kralı V Felipenin 1715-ci ildə evləndiyi Parma Dükünün qızı Elisabeth Farneseyə toy hədiyyəsi olub. Üç yüz il boyunca İspaniya, Fransa, İtaliya və Avstriya zadəganlarının sahib olduğu bu nadir almazın Hindistanın Golconda mədənindən çıxarıldığı deyilir.

## Diş həkiminə gedənləri gözləyən dəhşətli TƏHLÜKƏ...

Bəzi xəstəliklər var ki, biz onları önəmsəmirik. Tezliklə keçib keçən, hamıda olan xəstəlik kimi baxırıq. Ancaq fərqinə varmırıq ki, bunun sonu çox ciddi fəsadlarla baş verə bilər. Diş çəkdirməyi çox insan adi bir hal kimi qarşılayır. Hepatit xəstəliyinə yoluxma yolları müxtəlif olsa da, bu dəhşətli mərəzə tutulmağın diş çəkdirərkən də baş verə biləcəyi çoxlarının ağlına gəlmir. Deməli olar ki, insanların çox hissəsi bundan xəbərsizdir. Ancaq məlumdur ki, hepatit xəstələrinin bir qismi elə stomotoloji müayinə və müalicədən sonra bu xəstəliyə yoluxur.



Həkim terapevt Tural Qənbərli Modern.az-a bildirib ki, hepatit virusuna yoluxanların müəyyən hissəsi stomotoloji müayinədən keçənlərdir: " Bəzi problemlər var ki, onları çox önəmsəmirik. Ancaq onların çox ağır fəsadları olur. Bunlardan biri də diş çəkdirərkən və ya hansısa ağız boşluğunda aparılan qanlı prosedurанın ağır nəticələridir. Elə bir yetkin insan yoxdur ki, yolu diş həkiminə düşməsin. Rezidentura dövründə rotasiyada olduğum infeksion şöbələrdə hepatitli xəstələrin böyük çoxluğu məhz stomotoloji müayinədən sonra hepatit virusuna yoluxduqlarını qeyd edirdilər".

Tural Qənbərli deyib ki, insanlar stomoloji müalicələrdən sonra təkrarən müayinədən keçməlidirlər: "Kardioloji rotasiyamda məhz ağız boşluğunda aparılan qanlı prosedurадan sonra ürək qapaqlarının zədələnməsi və ya anadangəlmə ürək qüsuru olan insanlarda həmin qüsurun ağırlaşmalarına rast gəlmişəm, səbəb isə diş kariyesini törədən streptokok adlı bakteriyanın deffekt nahiyəsindən qana keçərək ürək qapaqlarında və ya qüsur yerində iltihabi dəyişikliklər törətməsidir".

Tural Qənbərlinin sözlərinə görə, müayinədən əvvəl antibiotiklərdən istifadə etmək məqsədəuyğundur: "Stomotoloj müayinə planlaşdıran pasiyentlərə tövsiyə edərdim ki,öncə hepatitə görə peyvənd olunsunlar və kardioloq həkimlərinin məsləhəti ilə müayinədən əvvəl antibiotiklərdən istifadə etsinlər. Stomotoloji müayinədən sonra exokardioqramma və hepatit viruslarına görə təkrar müayinədən keçsinlər".

Stomotoloq Niyaməddin Daşdıyev Modern.az-a bildirib ki, stomotoloqa müraciətdən əvvəl müayinə olunmaq yaxşı olar: "Stomotolji müayinədən qabaq hepatit əleyhinə peyvənd olunmaq məsləhətdir. Bundan başqa stomotoloji müayinədən 6 ay sonra da müayinə olunub yoxlamaq lazımdır. Stomotoloji müayinə olunarkən diqqətli olmaq lazımdır ki, alətlərin sterilaziyası necə aparılır. Bunu həkimdən soruşmaq vacibdir. Özünüzə aid olan alətlər dəsti də ola bilər".

### ELAN

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya-biologiya müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Səfərova Tahirə Rəhman qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

**X X X**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təlim və tərbiyə ixtisası üzrə 8 tədris ili tələbəsi Səmədli Lalə Seyran qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

## Çempionlar Liqasının final oyunu 226 ölkədə yayımlanacaq




Mayın 26-da UEFA Çempionlar Liqasının Kiyevdə keçiriləcək final oyunu 226 ölkədə yayımlanacaq. AZƏRTAC xəbər verir ki, "Liverpul" və "Real" komandaları arasında keçiriləcək həlledici oyun Olimpiya Stadionunda təşkil olunacaq. Məşhur niderlandlı DJ Hardwell final oyununda konsert proqramı ilə çıxış edəcək. Musiqiçi 2013-cü və 2014-cü illərdə DJ-lərin reytinq cədvəlində birinci pillədə qərarlaşıb. DJ Hardwell irimiqyaslı musiqi festivallarında iştirak edib. Daha öncə final oyununda məşhur britaniyalı müğənni Dua Lipanın iştirak edəcəyi bildirilirdi. Qeyd edək ki, Dua Lipa Formula 1 Azərbaycan Qran-Prisindən sonra "Baku Crystal Hall"da möhtəşəm konsert proqramı ilə çıxış edib.

## "Sportinq"in bazasına hücum edənlər həbs olunub

Portuqaliyada "Sportinq" klubu ilə bağlı qalmaqal böyüməkdədir. Azarkeşlərin futbol komandasının məşqi zamanı klubun bazasına hücumundan sonra araşdırmalar davam edir. Portuqaliya polisi artıq 21 nəfəri həbs edib. Hücumda iştirak edən digər şəxslərin də müəyyənləşdirilməsi istiqamətində əməliyyat aparılır. Bundan başqa, rəsmi orqanlar klubun bazasında axtarış aparıblar. Klub Portuqaliyanın həndbol çempionatında hakimlərə rüşvət verməkdə ittiham olunur.

## Avropa çempionatında ölkəmizi10 samboçu təmsil edəcək



Mayın 17-dən 21-dək Yunanıstanın paytaxtı Afinada sambo üzrə Avropa çempionatı keçiriləcək. AZƏRTAC xəbər verir ki, yarışda ölkəmizi Ağasif Səmədov (52 kq), Mehman Xəlilov (57 kq), Cavidan Qarayev (62 kq), Emil Həsənov (68 kq), Kamran Əsgərov (74 kq), Ceyhun Hüseynov (82 kq), Nizami Məmmədov (100 kq) və Vasif Səfərbəyov (100 kq-dan yuxarı) təmsil edəcəklər. Döyüş sambosu yarışlarında isə Ramil Vəliyev (74 kq) və Nəbi Məmmədov (100 kq) birincilik uğrunda mübarizə aparacaqlar. Millimiz çempionatda Azərbaycan Sambo Federasiyasının prezidenti Ceyhun Məmmədovun rəhbərliyi altında yarışacaq.

## Zidan Fransa millisini çalışdıra bilər

"Real"ın baş məşqçisi Zinəddin Zidan Fransa millisini çalışdıra bilər. Qol.az-ın xarici KİV-lərə istinadən yaydığı xəbərə görə, Fransa Futbol Federasiyası 45 yaşlı mütəxəssislə maraqlanır. Madrid klubundakı karyerasının sona yaxınlaşdığını düşünən Z.Zidanın yığmada işləməyə müsbət baxdığı bildirilir. Qeyd edək ki, Fransa millisinin hazırkı baş məşqçisi Didye Deşamın DÇ-2018-dən sonra yığmadan ayrılacağı gözlənilir.

## "Beşiktaş"ın futbolçusu Çin klubuna transfer olub



"Beşiktaş"ın futbolçusu Dusko Toşiç karyerasını Çində davam etdirəcək. SİA-nın məlumatına görə, serb müdafiəçi bu ölkənin "Quançjou Everqrand" klubuna transfer olub. "Qara qartallar" bu transferdən 5 milyon avro qazanacaq. Qeyd edək ki, Toşiç 2015-ci ildən "Beşiktaş"ın şərəfini qoruyur. 33 yaşlı müdafiəçi İstanbul təmsilçisinin heyətində meydana çıxdığı 66 qarşılaşmada 7 qol vurub.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**